**Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

19
FEVRAL
2020-ci il

№ 30 (4161)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# «PAŞİNYANIN MÜNHEN BİABIRÇILIĞI» - ERMƏNİSTAN MEDİASINDA KƏSKİN BAŞLIQLAR ARA VERMİR...

■ səh. 5 ■

Münhendə Qarabağ debatına beynəlxalq reaksiyalar da Ermənistan liderini "yerlə bir etdi"...
■ səh. 9 ■

Paşinyanın debat süqutundan sonra erməni mediası "Madrid prinsipləri"ni Münhen prinsipləri ilə əvəzləyib...
■ səh. 5 ■

Paşinyan BMT TŞ-nin Qarabağ qətnamələrinin mahiyyətini təhrif edir - Münhen debatından dünyaya daha bir dəqiq mesaj...
■ səh. 4 ■

12 saylı məntəqə seçki komissiyasının üzvü Əfruz Hacıyevanın davranışlarına hüquqi qiymət veriləcəkmi...
■ səh. 7 ■

ABŞ-ın Avropada Rusiya əleyhinə "sıxılmış qaz" planları, qarşıdurmada Azərbaycan qazının öz yeri var
■ səh. 8 ■

55 nəfər doktorant Ali Attestasiya Komissiyasının sədrinə niyə etiraz edir...
■ səh. 12 ■



## Bakıda havanı çox çirkləndirən sənaye müəssisələri və ticarət obyektləri yox, avtomobillərdir - Vüsal Kərimli Prezidentə qəti söz verdi, birinci rübün sonunadək...

■ səh. 2-3 ■





Azərbaycanda məcburi köçkünlərin evlərindən çıxarılması erməni mediasının mövzusuna çevrilib - «Qaçqınkom» öz qərarına necə haqq qazandıracaq...
■ səh. 4 ■

Əsəd-İran-Rusiya üçlüyü İdlib-Hələb xəttində Türkiyəni təkləyir, NATO da soyuq yanaşdı...
■ səh. 10 ■

«Sədərək» bazarı - dəhşətli yanğınlar, antisanitariya, qanunsuzluq, özbaşınalıq, hər cür təxribatlar, təhlükələr mənbəyi...
■ səh. 13 ■

■ səh. 6 ■
Dağlıq Qarabağda erməni irsinin birmənalı yoxluğu mübahisəsiz fakt kimi...



■ səh. 7 ■
Milli Məclis partiyaları seçkinin nəticələrinə niyə qiymət vermir?



■ səh. 11 ■
Azərbaycanda bir nəfər də olsa qadın siyasi partiya sədri yoxdur...



■ səh. 14 ■
Sığorta şirkətləri 2008-ci ildən "qoca" avtomobilləri sığortalamaqdan imtina edir - biznes marağını insan haqlarından uca tutanlar...



■ səh. 15 ■
Tarix-mədəniyyət abidələrinin bərpa tenderlərinə böyük şübhələr var - niyə həmişə eyni şirkətlər qalib "çıxır"?



# Bakıda havanı çox çirkləndirən sənaye müəssisələri və ticarət obyektləri yox, avtomobillərdir - Vüsal Kərimli Prezidentə qəti söz verdi, birinci rübün sonunadək...

**Prezident İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul edib. Son illər şəhər nəqliyyatı ilə bağlı görülmüş işlərdən danışan Prezident İlham Əliyev deyib:**

- Bakı Nəqliyyat Agentliyi keçən ili yaxşı nəticələrlə başa vurub, görülən işlərin bir hissəsi ilə mən şəxsən tanış olmuşam. Hesab edirəm ki, Agentlik üçün keçən il uğurlu olubdur. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, hələ görüləsi işlər çoxdur.

Son beş il ərzində şəhərimizə yüzlərlə yeni avtobus gətirilib. Bu avtobusların hamısı dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bu, bizim şüurlu seçimimizdir. Çünki Bakıda ən müasir texnologiyalar tətbiq edilməlidir, o cümlədən nəqliyyat vasitələrinin dünyanın ən yüksək standartlarına cavab verməsi əsas şərtlərdən biridir. Onu da bildirməliyəm ki, beş il bundan əvvəl Bakıya gətirilmiş ilk xarici istehsal olan avtobuslar, hətta o avtobusların istehsal olunduğu ölkələrdə hələ xətlərə çıxmamışdı. Yəni ən müasir avtobuslar gətirilir. Əlbəttə ki, bu, şəhər nəqliyyatının böyük dərəcədə yaxşılaşdırılması istiqamətində çox önəmli addımdır. Mənim göstərişimlə hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılır və hər il orta hesabla 300 avtobus Bakı Nəqliyyat Agentliyinin xətti ilə şəhərimizə gətirilir. Beləliklə, biz avtobus parkını tədricən müasirləşdiririk. Eyni zamanda, mənim özəl şirkətlərə də tövsiyəm ondan ibarət idi ki, onlar da öz avtobus parklarına yenidən baxsınlar. Görürəm ki, bəzi şirkətlər bu istiqamətdə önəmli addımlar atırlar.

Avtobusların ölkəmizə gətirilməsi, əlbəttə ki, işlərin bir hissəsidir. Bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir və bu istiqamətdə kompleks tədbirlər görülür. Yol infrastrukturuna görə Azərbaycan dünya miqyasında 27-ci yerdədir. Bu da Davos Forumunun hesabatında əksini tapıbdır.

Şəhər nəqliyyatı ilə bağlı digər tədbirlər də görülür və görüləcəkdir. Eşitmək istərdim ki, keçən il görülmüş əsas işlər nədən ibarət idi? Bu il neçə yeni avtobus gətiriləcək və şəhər nəqliyyatında hansı yeniliklər olacaq?

**Paytaxt nəqliyyatında cəmi 2 avtobusu olan daşıyıcı şirkətlər…**

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli hesabat verib:

-Çox sağ olun, cənab Prezident. Keçən il Bakı şəhərində fəaliyyət göstərən 2200 avtobusla 801 milyon sərnişin daşınıb. Ümumi daşıyıcıların sayı 65-dən 37-yə endirilib. Yəni, iki avtobusu olan şəxslər var idi ki, onlar da fəaliyyət göstərmək istəyirdilər. Aydın məsələdir ki, onlar insanların rahatlığı üçün deyil, öz maraqları naminə fəaliyyət göstərirdilər. Biz onların sayını müəyyən tələblər əsasında 65-dən 37-yə endirdik. Ümumilikdə, beş il ərzində 855 avtobus yenilənib. Bunlardan 600-ü Sizin tapşırığınızla xarici ölkələrdən gətirilib. Daşıyıcılar tərəfindən də Bakı Nəqliyyat Agentliyinin tələbləri əsasında 295 müasir avtobus gətirilib. Ümumilikdə bu günədək avtobus parkı 40 faizə yaxın yenilənib. Sizin tapşırığınıza əsasən hər il 300 avtobus gətirilməklə yaxın üç ildə parkın yenilənməsini 100 faizə çatdırmağı planlaşdırırıq.

Cənab Prezident, biz bu ilin birinci yarısında bütün marşrut xətlərində işləyən avtobuslarda ödənişin kart sistemi ilə aparılmasını təmin edəcəyik. Bu isə, Sizin tapşırdığınız kimi, kölgə iqtisadiyyatının, eyni zamanda, qeyri-formal iş rejiminin aradan qaldırılmasına, sürücülərin 8 saatdan artıq işləməsinin qarşısının alınmasına, ictimai nəqliyyatdakı dövriyyənin şəffaflaşmasına imkan yaradacaq. Çünki şəxsi nəqliyyat vasitəsilə bir nəfər, avtobusda isə 70-80 nəfərə qədər sərnişin olur. O bir nəfər avtomobilini yolda qeyri-qanuni park etdiyinə görə avtobusun hərəkəti üçün çətinliklər yaradır. Son zamanlar parkinqlə bağlı cərimələrə görə insanların müəyyən narazılıqları olur. Amma Bakı paytaxt şəhərimizdir, bütün ölkələrin paytaxt şəhərlərində olduğu kimi, bizdə də insanlar avtomobillərini istədikləri yerlərdə park edə bilməzlər. Çünki əsas ictimai nəqliyyatdır, biz gün ərzində 2 milyon 200 sərnişin daşıyırıq. Sakinlər, əsasən, ictimai nəqliyyatdan istifadə edirlər. Ona görə, Sizin tapşırığınıza əsasən, biz ictimai nəqliyyatdan istifadə edən sərnişinlərin rahatlığını təmin etməyə çalışırıq.



**"…bu gün şəhər nəqliyyatı tıxacdan tərpənə bilməzdi"**

Prezident İlham Əliyev: Çox yaxşı haldır ki, hazırda bütün nəqliyyat növləri arasında koordinasiya işləri də aparılır. Hesab edirəm ki, taksi, metro və avtobus xidmətləri növbəti mərhələdə bir-biri ilə daha da sıx əlaqədə olmalıdır. Əsas məsələ tıxacların azaldılmasıdır. Əlbəttə ki, bunun üçün təkcə yeni yolların çəkilişi, yeni qovşaqların tikintisi ilə işimizi məhdudlaşdıra bilmərik. Amma o da həqiqətdir ki, əgər son 10-12 il ərzində Bakıda böyük yol infrastrukturu layihələri icra edilməsəydi, bu gün şəhər nəqliyyatı tıxacdan tərpənə bilməzdi. Bu, həqiqətdir. Sadəcə, 10 il bundan əvvəl mövcud olan mənzərəyə qayıtmaq lazımdır ki, bunu hər kəs görsün və bilsin. Bizim əsas nəqliyyat damarlarımız demək olar ki, tamamilə iflic vəziyyətdə idi. Şəhəri hava limanı ilə birləşdirən əsas yol, baxmayaraq ki, dördzolaqlı sayılırdı, əslində, ikizolaqlı idi və bu yol boyunca bir neçə dairə mövcud idi. Ancaq bu gün bir dənə də dairə yoxdur, yəni hava limanından şəhərə çox rahat gəlmək üçün bütün imkanlar var. Təkcə bu deyil, hava limanına digər avtomobil yolunun çəkilişi də böyük əhəmiyyət daşıyır. Zığ istiqamətindən hava limanına, ümumiyyətlə, yol yox idi. O vaxt biz təşəbbüs göstərərək onu icra etdik və bu, bir çox məsələləri həll etdi. Eyni zamanda, deyə bilərəm ki, son illərdə Bakı şəhərində görülmüş işlərin, tikilmiş körpülərin, yol qovşaqlarının bəlkə də misli-bərabəri yoxdur.

Ancaq bununla yanaşı, nəqliyyat vasitələrinin sayı artır. Bu da əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasından xəbər verir. Statistika var, hər il ölkəmizə gətirilən və artıq hazırda ölkəmizdə istehsal olunan nəqliyyat vasitələrinin sayı artmaqdadır. Əhalimiz artır, Bakı şəhərinin əhalisi artır. Ona görə, şəhər nəqliyyatımız bu artıma uyğun şəkildə inkişaf etməlidir və bu artımla uzlaşmalıdır. Odur ki, bundan sonra metro tikintisi, yeni qovşaqların inşası, Bakı dairəvi dəmir yolunun çəkilişinin başa çatdırılması, avtobus nəqliyyatının səmərəli fəaliyyəti - bütün bu nəqliyyat seqmentləri vahid bir mexanizm kimi işləməlidir. Əsas məsələ insanların yola sərf edəcəyi vaxtın azaldılmasıdır.

**"Kimsə işçiləri qanunsuz işlədirsə, istismar edirsə, cəzasını alacaq"**

Bununla bərabər, bəlkə də bundan daha vacib məsələ təhlükəsizlikdir, sürücülərin hazırlanmasıdır, onların tibbi müayinəsi və iş qrafikidir. Mən bu yaxınlarda bildirdim ki, heç kim gündə 8 saatdan artıq işləməməlidir. Əgər kimsə işçiləri qanunsuz işlədirsə, istismar edirsə, cəzasını alacaq. Əlbəttə, əminəm ki, Bakı Nəqliyyat Agentliyində çalışan sürücülər bu meyarlara riayət edirlər. İnsanların rahatlığı da vacib məsələdir. İnsanlar müasir avtobuslarda özlərini çox rahat hiss edirlər. Prinsip etibarilə elə bir avtobus xidməti olmalıdır ki, hətta şəxsi nəqliyyat vasitəsi olan insanlar da şəhər nəqliyyatı ilə hərəkət etməyə üstünlük versinlər. Hesab edirəm ki, biz bu hədəfə yaxınlaşırıq. Əlbəttə, növbəti illərdə avtobus parkının təzələnməsi istiqamətində əlavə tədbirlər görüləcək və eyni zamanda, şadam ki, hazırda ölkəmizə gətirilən yeni avtobuslar ekoloji cəhətdən çox təmizdir. Çünki sirr deyil ki, havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir. Sənaye müəssisələri, ticarət obyektləri deyil, - bunun statistikası var, - nəqliyyat vasitələridir.

*(Ardı 3-cü səh.)*

*(Əvvəli 2-ci səh.)*

Ona görə həm iki ildən sonra Azərbaycanda istehsal olunacaq "Avro-5" markalı benzinin bazara daxil olması bu sahədə çox böyük irəliləyişə səbəb olacaq, eyni zamanda, sıxılmış qazla və elektrik enerjisi ilə işləyən avtobusların ölkəmizə gətirilməsi, bunun üçün müvafiq infrastrukturun yaradılması zəruridir. Ona görə bu istiqamətdə əlavə addımlar atılmalıdır.

Bir də maraqlanmaq istəyirəm, - indi şəhərin mərkəzi hissələrində avtobus xidməti kifayət qədər səmərəlidir, - qəsəbələrdə vəziyyət necədir? Qəsəbələrdə avtobus nəqliyyatı ilə bağlı hər hansı bir problem varmı? Varsa, onların həlli üçün nə etmək lazımdır?

Vüsal Kərimli: Cənab Prezident, son zamanlar qəsəbələrdə bəzi evlərin yollara yaxın tikilməsi yol infrastrukturunda bir az çətinliklər yaradıb. Biz bu ilin doqquzuncu ayından sonra qəsəbələri onların yol ölçülərinə, dönmə dərəcələrinə görə mərhələli şəkildə avtobuslarla təmin edəcəyik. Çünki 12 metrlik avtobuslar bəzi qəsəbələrin yollarında hərəkət edə bilmir. Sizin tapşırığınıza əsasən bu il alınacaq 415 avtobusdan 115-i artıq sifariş edilib, 300-ü isə tenderə çıxarılacaq. Orada biz 8 və 9 metrlik avtobuslar da nəzərdə tutmuşuq ki, qəsəbələrətrafı və qəsəbələrdaxili hərəkət üçün daha təhlükəsiz, onların yoluna uyğun olsun. Eyni zamanda, mart ayında daşıyıcılar tərəfindən də 50-yə yaxın avtobusun gətiriləcəyi gözlənilir. Bu avtobusların qəsəbələr istiqamətində xətlərə buraxılması nəzərdə tutulur.

### Prezident paytaxtda parkinq məsələsi barədə sualı Agentlik rəhbərinə dönə-dönə səsləndirdi…

Prezident İlham Əliyev: Elədir. Bir də ki, siz parkinq ilə bağlı danışdınız. Biz burada da hər şeyə ədalətli yanaşmalıyıq. Parkinq imkanları olmalıdır ki, sonra biz vətəndaşlardan bu qaydalara riayət etmələrini tələb edək. Ona görə bəzi hallarda sürücülər bu qaydaları kobudcasına pozurlar. Parkinq olan yerdə maşınları münasib olmayan yerlərdə saxlayıb, həm piyadalara maneə törədirlər, həm də nəqliyyata problem yaradırlar. Ancaq kifayət qədər böyük imkanlar, yəni, parkinq yerləri olmalıdır ki, biz sürücülərə bu tələbləri irəli sürək. Burada da heç bir qanun pozuntusu olmamalıdır. Qanun qarşısında hamı bərabərdir. Hamı bilməlidir ki, şəhər nəqliyyatı həm insanların rahatlığıdır, həm bizim sağlamlığımızdır, həm də havanın təmiz olmasıdır. Yenə də deyirəm, havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir, xüsusilə, tıxac olan yerdə. Tıxacın olmaması isə sizin əsas vəzifənizdir. Siz bundan sonra da aidiyyəti dövlət qurumları ilə bu istiqamətdə fəal olmalısınız. Ona görə, parkinqlə bağlı soruşmaq istəyirəm. Vəziyyət necədir və bu il hansı addımlar gözlənilir?

### Parkinq qiymətinə görə paytaxt A, B zonalarına…

Vüsal Kərimli: Bu il biz parkinqlə əlaqədar bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq məsləhət xidmətlərini cəlb etmişik ki, Bakı şəhərində parkinq məsələsi nəinki infrastruktur cəhətdən, eyni zamanda iqtisadi baxımdan analiz olunsun. Çünki şəhər zonalara bölünməlidir. Bunun gecə vaxtları var. Şəhərdə tıxac olan vaxtlarda açıq yolları analiz edib harada neçə yeraltı parkinqmi, küçə parkinqimi, yoxsa, xüsusilə Molların və insanların yaşadığı əsas yerlərdə modul parkinqlər tikilməlidir və onların tarifləri olmalıdır. Şəhər mərkəzinin tarifi fərqli qiymətdə olmalıdır. "B" zonası fərqli qiymətdə olmalıdır. Bununla əlaqədar biz ilin ilk yarısının yekununda görülmüş işlərin nəticələrinə dair digər müvafiq qurumlarla birgə hesabat hazırlayıb Sizə təqdim edəcəyik.

Prezident İlham Əliyev: Yaxşı, bu il görüləsi işlər çoxdur. Əminəm ki, ilin sonunda biz şəhər nəqliyyatını daha da inkişaf etmiş halda görəcəyik. Çünki bir daha demək istəyirəm, bu, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı üçündür. Onu da bildirməliyəm ki, dövlət xətti ilə böyük məbləğə alınan avtobuslar, əlbəttə, kommersiya baxımından bəlkə də 10 il, 20 ildən sonra özünü doğruldacaq. Biz bunu ona görə edirik ki, insanlar şəhər nəqliyyatından, avtobuslardan təhlükəsizlik şəraitində və rahat şəkildə istifadə etsinlər.

**Mərkəzi Seçki Komissiyasının (MSK) parlament seçkiləri ilə bağlı iclası keçirilib. "Trend"-in məlumatına görə, iclası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov açıq elan edib.**

# MSK 56 saylı dairənin nəticələrini qüvvədə saxladı, 123-cü dairədə isə…

İclasda əvvəlcə 56 saylı Xaçmaz Kənd Seçki Dairəsi üzrə namizəd Hüseynov Zeyqam Hüseyn oğlunun müraciətinə baxılıb.

Müraciət haqqında məlumat verən MSK katibi Arifə Muxtarova bildirib ki, əvvəlcə Z.Hüseynovun müraciəti baxılması üçün müvafiq olaraq dairə seçki komissiyasına (DSK) göndərilib.

O qeyd edib ki, Z.Hüseynov müraciətində bütün dairə üzrə deyil, yalnız həmin dairənin 7 saylı seçki məntəqəsində səsvermənin nəticələrini mübahisələndirib.

A.Muxtarova bildirib ki, DSK müraciətə baxıb və müvafiq qərar qəbul edib.

Onun sözlərinə görə, DSK Z.Hüseynovun müraciətini əsassız hesab edib: "Z.Hüseynov iddia edib ki, 7 saylı məntəqədə onun nüfuzu böyük olduğu üçün daha yüksək səs toplamalı idi. Lakin DSK ondan bununla bağlı hər hansı bir tutarlı sübut təqdim etməyi tələb etdikdə Z.Hüseynov əsas gətirə bilməyib. DSK araşdırma aparıb və seçki günü həmin məntəqədə seçicilərin iradəsinə təsir edə biləcək hər hansı bir hal aşkar etməyib. Buna görə də DSK Z.Hüseynovun müraciətini əsassız hesab edib və təmin etməyib".

DSK-nın qərarı MSK tərəfindən qüvvədə saxlanılıb.

MSK-nın fevralın 18-də keçirilən iclasında 123 saylı Kəlbəcər Seçki Dairəsindən qeydə alınmış namizəd -



Qənbərov Əzizin də şikayətinə baxılıb.

MSK-nın üzvü Tofiq Həsənov bildirib ki, şikayətçi seçki bülletenlərinin topa şəkildə qutulara atılmasını, bir seçicinin bir neçə dəfə səs verməsini və s. öz müraciətində mübahisələndirib: "Şikayətçinin müraciəti araşdırılıb və onun müraciətində qeyd edilən hallar müşahidə edilməyib. Araşdırma zamanı yalnız 16 saylı seçki məntəqəsində seçicilərin iradəsini əks etdirməyən pozuntular aşkar edilib. Buna görə 16 saylı seçki məntəqəsində seçkilərin nəticələrinin etibarsız sayılması üçün əsas yaranıb".

MSK-nın iclasında 123 saylı seçki dairəsi üzrə 1 məntəqədə seçkilərin nəticəsinin etibarsız sayılması ilə bağlı qərar qəbul edilib və şikayət qismən təmin edilib.

MSK-nın iclasında 79 saylı İmişli Seçki dairəsindən namizədlər - Hüseynli İlqar, Fərzəliyev Muradın və Əkbərli İltizamın şikayətinə baxılıb.

MSK üzvü Bəxşeyiş Əsgərov bildirib ki, müraciətlərdə çoxlu sayda video-görüntülər, protokollar, aktlar MSK-ya təqdim edilib: "Araşdırma zamanı namizədlər MSK-da olublar. Gecə saatlarına qədər biz onlarla araşdırmanı aparmışıq. Aparılan araşdırma nəticəsində iki məntəqə üzrə seçki qanunvericiliyinin pozulmasını müşahidə etmişik. 14 saylı və 23 saylı məntəqədə keçirilən səsvermənin seçicilərin iradəsini əks etdirmədiyi məlum olub. Seçki məntəqələrində əsas mübahisələndirilən məsələ protokolların namizədlərə verilməməsidir. Fərzəliyev Murad isə 43 seçki məntəqəsinin 37-sindən protokolları əldə edə bilib. F.Murad, şikayətə əlavə olaraq, 19, 20, 21 saylı məntəqələrdə də seçkinin nəticələrini araşdırmağı xahiş edib. Ekspert Qrupu sosial şəbəkədə yayılan və veb-kameralardakı görüntüləri də araşdırıb. 14, 16, 21, 23, 25 saylı məntəqələrdə səsvermənin nəticələri etibarsız hesab edilib".

Daha sonra iclasda 32 saylı Suraxanı Üçüncü Seçki Dairəsindən namizədliyi qeydə alınan Cəfərli Fikrət və Vəlican Rəcəbovun müraciətinə baxılıb. Araşdırma zamanı 4, 8, 9 saylı seçki məntəqələrində seçicilərin iradəsini əks etdirməyən hallar aşkar edilib. Həmin məntəqələrdə səsvermənin nəticələri etibarsız hesab edilib. MSK-nın iclasında qərar səsə qoyulub və qəbul edilib. Qərar 32 saylı Suraxanı Üçüncü Seçki Dairəsində seçkinin ümumi nəticələrinə təsir etməyib.

İclasda daha bir seçki dairəsi üzrə daxil olmuş müraciətlərə də baxılıb.

Müzakirələrin nəticəsi olaraq 108 saylı Ağstafa seçki dairəsi üzrə müraciətlərin araşdırılması üçün müvafiq dairə seçki komissiyasına göndərilməsinə qərar verilib.

İclasın sonunda 9 saylı Binəqədi İkinci Seçki Dairəsindən Günel Səfərova, Elşad Musayev və digər namizədlərin müraciətinə baxılıb.

Müraciət MSK-nın iclasında müzakirəyə çıxarılıb və şikayətin qismən təmin edilməsi ilə bağlı qərar qəbul edilib. Qərarda 31 və 35 saylı seçki məntəqələrində səsvermənin nəticəsi etibarsız hesab edilib.




## Almaniyada Ümumavropa Qarabağ mitinqi keçiriləcək

**Almaniyanın Berlin şəhərindəki Brandenburq qapıları yaxınlığında yerləşən Paris meydanında Xocalı Soyqırımının 28-ci ildönümü ilə əlaqədar Ümumavropa Qarabağ mitinqi keçiriləcək.**

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, dünyanın 30-a yaxın ölkəsində fəaliyyət göstərən diaspor təşkilatlarının təşəbbüsü və Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə keçirilən mitinq fevralın 22-si saat 13:00-da baş tutacaq.

Aksiyaya Azərbaycan, Almaniya, Niderland, Macarıstan, Polşa, İspaniya, İtaliya, Belçika, İsveç, Latviya, Litva, Estoniya, Çex Respublikası, Avstriya, İsveçrə, Norveç, Finlandiya, Fransa, Rumıniya, Xorvatiya, Böyük Britaniya, Yunanıstan, Moldova, Ukrayna, Gürcüstan, Türkiyə, ABŞ, Kanada və bir sıra başqa ölkələrdə yaşayan soydaşlarımız, eləcə də Azərbaycana dost münasibət bəsləyən xalqların diaspor üzvlərinin qatılacağı gözlənilir.

Xocalı soyqırımının 28-ci ildönümü ərəfəsində keçirilən mitinqin iştirakçıları "Qarabağa Azərbaycandır!", "Biz terrora yox deyirik", "Azərbaycan ədalət tələb edir!", "Xocalıya biganə qalma!", "Dinc və günahsızların qatillərinə ar olsun!", "Erməni yalanlarına dur de!", "İşğalı dayandırın!", "Qarabağ haqqımızdır!" kimi şüarlarla beynəlxalq təşkilatlara çağırış edəcəklər.

Aksiya iştirakçıları 28 il əvvəl ermənilərin Xocalıda törətdikləri soyqırıma beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsini, işğal olunmuş Azərbaycan torpaqlarının geri qaytarılması üçün Ermənistana təzyiq göstərilməsini, yurd-yuvalarından didərgin düşmüş azərbaycanlıların pozulmuş hüquqlarının bərpa edilməsini, münaqişə ilə bağlı qəbul olunmuş məlum beynəlxalq sənədlərə Ermənistanın riayət etməsini tələb edəcəklər.

Mitinq zamanı yerli sakinlərə, turistlərə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrini, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın məruz qaldığı maddi və mənəvi itkiləri əks etdirən broşürlər paylanılacaq.

Mitinqdə min nəfərdən çox soydaşımızın iştirakı gözlənilir. Ümumavropa Qarabağ mitinqinin sonunda yekun sənədin qəbulu və bir sıra beynəlxalq təşkilatlara ünvanlanması planlaşdırılıb.

# Azərbaycanda məcburi köçkünlərin evlərindən çıxarılması erməni mediasının mövzusuna çevrilib - "Qaçqınkom" öz qərarına necə haqq qazandıracaq...

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi 70-dən çox məcburi köçkün ailəsinə verilən mənzilin geri qaytarılması üçün məhkəməyə müraciət edib. Bu barədə Dövlət Komitəsinin Aparat rəhbəri Eldar Zeynalov bildirib.**

*”...ermənilər bu kimi hallardan təbliğat məqsədi üçün istifadə edirlər”*

Onun sözlərinə görə, məcburi köçkün ona verilən mənzildə yaşamadığı halda, həmin ev geri alınaraq orada başqa məcburi köçkün ailəsi yerləşdirilir: "Bəzi hallarda məcburi köçkün ailəsi evi aldıqdan sonra orada yaşamır. Belə faktlar var. Təbii ki, həmin məcburi köçkünlərin məhz hamısının evi olduğuna görə Dövlət Komitəsinin verdiyi mənzillərdə yaşamadıqlarını söyləmək doğru olmazdı. Bəzi hallarda uşağın təhsili ilə bağlı və yaxud xəstəsi olduğuna görə həmin mənzillərə köçməyib gedib kirayədə yaşayanlar var. Amma məsələ ondadır ki, məcburi köçkünlərə mənzillər verildikdə onlarla müqavilə bağlanır. Müqavilədə qeyd olunur ki, məcburi köçkün evi alandan sonra 3 ay müddətinə ora köçmədisə, ev ondan geri alınır. Bunun da prosedur qaydası var. Biz belə hal olanda məhkəməyə müraciət edirik və məhkəmə yolu ilə həmin mənzil geri qaytarılır.

Hazırda məcburi köçkünlərin evlərinin boşaldılması ilə bağlı 70-dən çox məhkəmə işi var. Onu da deyim ki, bizim məhkəməyə müraciət etmədən boşaltdığımız evlər də var. Çünki proses belədir ki, məhkəməyə müraciət etməmişdən öncə həmin məcburi köçkünün özünə deyirik, danışıq aparırıq, vəziyyəti izah edirik. Boşaldılmış evlər digər məcburi köçkün ailələrinə verilir".

Onu da qeyd edk ki, Azərbaycanda məcburi köçkünlərin evləri ilə bağlı sözügedən məsələ erməni mediasında da yayılıb. Onlar bunu mövzu edib təbliğat məqsədi üçün istifadə edirlər. Bunu elə təqdim edirlər ki, guya Azərbaycanda məcburi köçkünlərə verilən evlər geri alınır.

Bütövlükdə, "Qaçqınkom"un məsələyə bu cür yanaşması nə dərəcədə doğrudur? Yəni məcburi köçkün ailəsi evi aldıqdan sonra orada yaşamırsa, ona verilən evin geri alınması doğrudurmu?

Sözügedən məsələ ilə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə bir neçə dəfə əlaqə yaratmağa çalışsaq da, qurumdan münasibət öyrənmək mümkün olmadı.

**Rəsul Cahangirli:** *”Məcburi köçkün ona verilən evdə yaşamırsa, həmin evin geri alınması doğru deyil”*



Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, məcburi köçkün ona verilən evdə yaşamırsa, həmin evin geri alınması doğru deyil: "Əvvəla bununla bağlı 3 ay möhlət verilir və bunun özü düzgün deyil. Yəni 3 ay çox kiçik müddətdir. Ən azından, bunu 3 il etmək lazımdır. Digər tərəfdən, məcburi köçkün onsuz da öz evini itirib. Bu zaman ona böyük maddi zərər dəyməklə yanaşı, həm də böyük mənəvi zərbə dəyib. Mənəvi zərbəni nə iləsə kompensasiya etmək çox çətindir. Ola bilsin ki, məcburi köçkün hansısa zəruri səbəblər üzündən verilən evə köçmür və yaxud da digər səbəbdən bu proses yubanır. Məcburi köçkün nəyəsə görə həmin mənzilə köçmürsə, bu o demək deyil ki, o evdən imtina edir. Ola bilsin sonrakı dövrdə ailə üzvlərindən biri ora köçəcək. Bir məqamı da qeyd edim ki, Ermənistandan qaçqın düşənlərə verilən evlər daimidir. Qarabağ və ətraf rayonlardan məcburi köçkün düşənlərə verilən mənzillər isə müvəqqətidir. Yəni torpaqlar azad olunandan sonra həmin mənzillərin zamanla geri alınması nəzərdə tutulub. Bütün hallarda, hesab edirəm ki, məcburi köçkünlərə mənzil verilərkən onların üzərinə hansısa öhdəlik qoymaq doğru yanaşma deyil. Başqa bir tərəfdən, bizim düşmənimiz olan ermənilər bu kimi hallardan təbliğat məqsədi üçün istifadə edirlər. Belə bir saxta rəy yaradırlar ki, guya məcburi köçkünlər ayrıseçkiliyə məruz qalırlar. O üzdən, onlara bu fürsəti verməməliyik".

**Vidadi ORDAHALLI**

# Paşinyan BMT TŞ-nin Qarabağ qətnamələrinin mahiyyətini təhrif edir - Münhen debatından dünyaya daha bir dəqiq mesaj...

**Ermənistanın Baş naziri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin əsl mənasını uğursuz olaraq şərh edir. Bu fikirləri Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə deyib.**



Dövlət başçısı bununla bağlı açıqlamasında bir sıra məqamlara toxunub: "ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistana izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil. Heç bir ölkə Dağlıq Qarabağı tanımayıb. Ermənistanın Baş naziri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin əsl mənasını uğursuz olaraq şərh edir. BMT TŞ qətnamələrinin erməni qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini unudur".

Onu da qeyd edək ki, BMT-nin 4 qətnaməsinə Ermənistanın məhəl qoymamağı ilə bağlı fikrə Paşinyan heç bir cavab verə bilmədi. Bununla Prezident İlham Əliyev küçə hərəkatçısı Paşinyana real siyasətdə yeri olmadığını bir daha göstərdi.

**Mübariz Əhmədoğlu:** *”Həqiqətən də Paşinyan çox uğursuz formada sözügedən qətnamələri şərh etməyə çalışdı”*

Prezident İlham Əliyev çıxışında bildirdi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınır. "Beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi arqumenti qarşısında Paşinyan, sadəcə, məğlub formada susmağa üstünlük verdi.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun bəyan etdi. Bunlardan biri də BMT TŞ-nin qətnamələrində əksini tapan

*”Bütün hallarda, qətnamələrdə qeyd edilir ki, sözügedən ərazilər boşaldılmalıdır”*

sözlərinə görə, əvvəlki Ermənistan rəhbərləri də BMT qətnamələrini uğursuz şərh etməyə cəhd ediblər: "Paşinyan da onların yolu ilə gedir. Prezident İlham Əliyev Dağlıq Qarabağla bağlı həqiqətləri tutarlı arqumentlərlə məqamlar idi. Həqiqətən də Paşinyan çox uğursuz formada sözügedən qətnamələri şərh etməyə çalışdı. Məsələn, Paşinyan qeyd etdi ki, sözügedən 4 qətnamədə Ermənistan silahlı qüvvələri sözü yazılmayıb. Yazılıb ki, erməni silahlı qüvvələri. Yaxşı, Paşinyan dövlətinə yiyə durmursa, millətinə də yiyə durmur? Bütün hallarda, qətnamələrdə qeyd edilir ki, sözügedən ərazilər boşaldılmalıdır.

Məsələ ondadır ki, burada söhbət erməni silahlı qüvvələrindən gedir. Ona görə də Paşinyanın arqumentləri əsassız idi. Bu səbəbdən Ermənistan bu günə düşüb. İnşallah, Prezident İlham Əliyevin apardığı siyasət öz bəhrəsini verəcək və işğal altında olan torpaqlar azad ediləcək. Hesab edirəm ki, biz buna nail olacağıq".

**Vidadi ORDAHALLI**

**İlham Əliyevlə Nikol Paşinyan arasında Münhendə baş tutan debatdan sonra Ermənistan KİV-inin Paşinyanın üzərinə etdikləri hücum səngimək bilmir. Qeyd olunur ki, Paşinyan həmin davranışı ilə bütün erməni xalqını təhqir edib, təsadüfi deyil ki, buna görə onun kəskin tənqidçiləri yalnız siyasi opponentləri yox, həm də siyasətə aidiyyəti olmayan adamlardır.**

# "Paşinyanın Münhen biabırçılığı" - Ermənistan mediasında kəskin başlıqlar ara vermir...



Tanınmış erməni jurnalistlərindən biri yazır: "Mən elə bilirdim ki, Paşinyanın rəhbərliyi ilə həyata keçirilən inqilabdan sonra hakimiyyəti devrilən siyasi-kriminal idarəetmənin zamanından yaxşı yaşayacağıq. Nəticədə bunun əksini gördük. İki ildir biz çətin vəziyyətdəyik. Paşinyan verdiyi vədlərin heç birini həyata keçirmədi. Münhen görüşündən sonra tam əmin oldum ki, o, özünü ciddi görüşlərdə apara bilmir. Biri var Ermənistandakı öz tərəfdarlarının qarşısında çıxış edəsən və ya sosial şəbəkələrdə paylaşımlar edəsən, biri də var beynəlxalq arenada.

## *Elşən Mustafayev: "Münhen görüşü onsuz da Paşinyanın zəifləyən reytinqini daha da aşağı saldı"*

İlham Əliyev Paşinyanı ingilis dilini bilmə səviyyəsinə görə də üstələyirdi. İngilis dili bizim ana və dövlət dilimiz deyil, amma ölkə başçısının borcudur ki, dili mükəmməl bilsin. Yaxşı olardı ki, Paşinyan özünə tərcüməçi götürərdi, nəinki elə gülməli vəziyyətə düşəydi. O meydnda belə göründü ki, sanki Paşinyan məğlub tərəfdir. Münhen raundunun qalibi birmənalı olaraq Əliyev oldu".

Jurnalist daha sonra məqaləsində sual edir: doğrudanmı hakimiyyətdəkilərin ağlı bu qədər işləyir? Niyə onlar Paşinyanın reputasiyasını xilas etmirlər? Bir sözlə, məqalədə qeyd edilir ki, Münhen platforması yalnız Paşinyanı deyil, bütün Ermənistanı rüsvay etdi.

Siyasi şərhçi Elşən Mustafayev də qəzetimizə açıqlamasında erməni jurnalistin Paşinyanla bağlı iradlarını haqlı saydığını bildirdi: "Ermənistan cəmiyyətinin bütün zümrələrindən Paşinyana tənqid yağdırılır. Ortada konkret meydan olub və Paşinyan doğrudan da özünü orada realizə edə bilmədi. Belə reaksiyaların verilməsi və sərt olması təbiidir. Çünki dövlət başçısı beynəlxalq platformada bütün xalqı təmsil edir. Bunu bir idman yarışına da bənzətmək olar. Oradakı yarışı yalnız hansısa təbəqənin adamı izləmir. Bütün zümrələrin izlədiyi prosesdə məğlubiyyəti qəbul etmirlər. Paşinyan həmin debatda həm şəxsi göstəricilərinə, həm də ümumi mövzuya yanaşmaya görə məğlub oldu. İşğalçı həmin auditoriyada çıxıb nə danışmalıdır? Yalana güc verməlidir ki, həqiqətddən yayına bilsin. Bunu da etdi. Mən erməni mediasını izləyirəm. Hələ Paşinyan belə tənqid edilməmişdi. Həddən artıq sərt başlıqlarla məqalələr yazılır. Hətta qeyd edilir ki, o, bütün erməni xalqını biabır edib.

Hesab edirəm ki, Münhen görüşü onsuz da Paşinyanın zəifləyən reytinqini daha da aşağı saldı. Bundan sonra erməni təbliğat maşını onu xilas etməyin yollarını axtaracaq. Daxili auditoriyaya yönəlik populizmi Paşinyan gözəl bacarır. Ancaq həmin mövzular onun beynəlxalq arenada məhv olan imicini bərpa etmək gücündə deyil".

***Məhəmmədəli QƏRİBLİ***

**Ötən həftə beynəlxalq və regional müstəvidə ən yaddaqalan hadisələrdən biri Almaniyada ənənəvi olaraq keçirilən Münhen Təhlükəsizlik Konfransı və həmin konfrans çərçivəsində Azərbaycan Prezidenti ilə Ermənistanın Baş naziri arasında baş tutan debat oldu.**

Qeyd edək ki, konfrans çərçivəsində Azərbaycan Prezidentinin keçirdiyi ikitərəfli görüşlərdə beynəlxalq əməkdaşlıqdan tutmuş, enerji məsələləri, regional münaqişələr və onların həlli yolları, həmçinin, digər mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ümumilikdə isə Azərbaycanın belə bir mötəbər tədbirdə iştirakı və rəsmi Bakının burada nüfuzunun getdikcə artması müsbət amil kimi xarakterizə edilir. Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən İlham Əliyev və Nikol Paşinyan arasında debata diqqət çəkən ekspertlər həmin debatın Azərbaycan tərəfinin üstünlüyü ilə keçdiyini qeyd etməklə yanaşı, bu debat vasitəsilə də Ermənistanın qeyri-konstruktiv mövqeyinin bir daha dünyaya bəyan edildiyini vurğulayırlar. Bildirilir ki, İrəvan bir daha Dağlıq Qarabağ probleminin həllində sülh yolundan uzaq olduğunu ortaya qoydu. Artıq erməni ictimaiyyəti də debatla bağlı mövzunu aktiv müzakirə edir. Onlar Paşinyanı yaxşı formada olmadığına görə kəskin tənqid edirlər. Ən maraqlısı budur ki, Ermənistan KİV-i guya Paşinyanın həmin debatda sələflərindən miras qalan Madrid prinsiplərini deyil, yeni prinsiplər təklif etdiyini bildirir. Hətta qeyd edilir ki, Paşinyan Münhendəki debatdan sonra "Münhen prinsipləri" ilə bağlı anons mahiyyəti daşıyan paylaşım da edib. Bildirilir ki, bu yeni prinsiplərin reallığı yaxın zamanlarda özünü göstərəcək.

Münhendə hər hansı bir razılaşma olmadığı halda, Ermənistan KİV-inin danışıqlarda guya yeni mərhələnin başlandığını iddia etməsi və bunu "Münhen prinsipləri" adlandırmasında hansı məqsəd güdülə bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin dövriyyəyə buraxdığı bu məsələdə zərrə qədər də olsun həqiqət payı yoxdur: "Həmin görüşdə dünyadakı qlobal təhlükəsizlik problemləri müzakirə olunub. Ora toplaşan dövlət başçılarının apardıqları müzakirələrin mahiyyəti qlobal və

# Paşinyanın debat süqutundan sonra erməni mediası "Madrid prinsipləri"ni Münhen prinsipləri ilə əvəzləyib...

## *Qabil Hüseynli: "Guya Paşinyanın hansısa uğur əldə etməsi barədə yalan məlumatları verib, diqqəti debat məğlubiyyətindən yayındırmağa çalışırlar"*



regional təhlükəsizlik problemləri ilə bağlı olub. Paşinyanla İlham Əliyev arasında qısa bir görüş oldu. Bu da Cenevrədə XİN rəhbərlərinin apardığı müzakirələr ətrafında keçirildi. Sonda heç bir sənəd imzalanmadısa, burada hansı yeni prinsiplərdən danışmaq olar? Sonra tərəflər arasında bir debat oldu. Həmin debatda da İlham Əliyev Paşinyanı nokaut vəziyyətinə saldı. Bir daha bəlli oldu ki, Paşinyanın tarixi biliyi, erudisiyası çox zəifdir. Buna görə də yalanlara əl atırdı. İlham Əliyev isə zəngin biliyi və təcrübəsi ilə onu susdurdu. Erməni cəmiyyəti Paşinyanı həmin debata görə qınayır. Hətta ermənilərin özündə belə başlığa rast gəldim "İlham Əliyev Paşinyanı əzib keçdi". Ola bilər ki, yeni prinsiplərin gündəmə gəlməsilə bağlı yalan məlumatı Paşinyanın tərəfdarı olan media gündəmdə saxlayır.

Guya Paşinyanın hansısa uğur əldə etməsi barədə yalan məlumatları verib, diqqəti debat məğlubiyyətindən yayındırmağa çalışırlar. Burada zərrə qədər də həqiqət payı yoxdur. Çünki Madrid prinsipləri üzrə uzun müddətdir danışıqlar aparılır və Ermənistan heç vaxt bundan imtina etməyib. Əsası olmayan fikir kimi qəbul etməliyik".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Dağlıq Qarabağda erməni irsinin izlərinin birmənalı yoxluğu mübahisəsiz fakt kimi...

**Dağlıq Qarabağı və ətraf rayonları hələ də işğalda saxlayan Ermənistan qəsb etdikləri torpaqlarımızda maddi mədəniyyət abidələrini dağıdır, dağıtmadığını isə "erməni mədəni irsi" kimi qələmə verir. Müxtəlif səviyyələrdə Azərbaycan tərəfi Dağlıq Qarabağda ermənilərə aid heç bir tarixi irs olmadığını dəfələrlə bəyan edib.**

Azərbaycan Prezidenti İlham Əliyev də keçirdiyi görüşlərdə ermənilərin Azərbaycan xalqının tarixi mədəni irsini məhv etdiyini qeyd edib. Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrində Prezident İlham Əliyev bir daha Dağlıq Qarabağda ermənilərin hər hansı bir tarixi irsinin olmadığını bildirdi. "Dağlıq Qarabağda heç bir erməni tarixi irsi yoxdur" - deyə ölkə başçımız bir daha Ermənistanı dünya qarşısında pis vəziyyətə qoyub.

Dövlət başçısının fikirlərini şərh edən tarixçilər bildirirlər ki, onun Dağlıq Qarabağın tarixi ilə bağlı səsləndirdiyi hər bir fikir ciddi tarixi əsaslara söykənib.

Tarixçilər vurğulayırlar ki, işğal altında olan Dağlıq Qarabağ və ətraf rayonlarda bir dənə də olsa ermənilərə aid tarixi irs nümunəsi yoxdur. Azərbaycan torpaqlarını işğal etdikdən sonra buradakı qədim alban-xristian tarixi irsini mənimsəyən və "erməni irsi" kimi təqdim edən Ermənistanın böyük bir cinayətə imza atdığını deyən tarixçilər bildirirlər ki, "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra Çar Rusiyası tərəfindən Azərbaycan torpaqlarına köçürülən ermənilər Dağlıq Qarabağda da məskunlaşdırılıblar. Ermənilər buradakı alban-xristian abidələrinə, tarixi irsinə sahib çıxmağa başlayıblar. Qarabağdakı qədim alban kilsəsinə də sahiblənən ermənilər burada tamamilə alban mədəniyyətinin izlərinin silinməsinə nail olublar.

Tarixçilər qeyd edirlər ki, bu gün erməni işğalında olan Dağlıq Qarabağda Azərbaycan xalqının böyük tarixi irsi ermənilər tərəfindən məhv edilib.

1988-ci ildən Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ərazimizin 20 faizi ilə bərabər qiymətli mədəni sərvətlərimizi də itirdik. Bir milyondan artıq soydaşımız öz yurd-yuvalarından köçkün düşdü. Qədim Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində maddi mədəniyyət nümunələrimiz məhv edilir. Təsadüf üzündən məhv edilməmiş abidələr isə İran və ya Qafqaz mədəniyyət abidələri kimi təqdim olunur. Hamıya yaxşı məlumdur ki, Cənubi Qafqaz, o cümlədən, indiki Ermənistan, işğalçı müharibələr hesabına böyüdüyü torpaqlar erməni adlanan etnosun vətəni deyil. Tarix göstərir ki, erməni tayfaları Cənubi Qafqazdan çox uzaqlarda yaşamışlar. XIX əsrin erməni tədqiqatçıları belə hesab edirlər ki, ermənilər qaraçılardan, daha dəqiq "qəddar ürəkli", ayk (xayk) adlandırılan köçəri tayfadan əmələ gəliblər. Bir sıra Avropa və Azərbaycan tarixçilərinin dediklərinə görə, onların ilk vətəni Balkanlar olub, xristianlığı da məhz orada qəbul ediblər. Tarix boyu təcavüzkar və hiyləgər ermənilər özlərini məzlum xalq kimi qələmə verərək dünyanın diqqətini çəkmək istəyiblər. Lakin həqiqəti gizlətmək, pərdələmək o qədər də asan deyil. Ermənilərin təcavüzkarlığı bir çox alimin, o cümlədən, Strabonun da diqqətindən yayınmayıb. Ermənilər işğal etdikləri ərazilərdə, bir qayda olaraq, o xalqın mədəniyyət abidələrini ya yox edir, ya da "qazıntılar" apararaq əsil yazıları dəyişir və erməniləşdirirlər. Bu haqda məşhur gürcü şairi İlya Çavçavadze də yazmışdı: "Ermənilər tərəfindən gürcü kilsələrində gürcü yazılarının pozulması, tikinti daşlarının çıxarılıb əvəzinə erməni yazıları olan daşların qoyulması haqda sübut olunmuş bir çox fakt var".

Tanınmış rus tarixçi-alimi V.Veliçkonun kitabında da ermənilər tərəfindən gürcü və alban abidələrində əsil yazıların pozulması və dəyişdirilərək mənimsənilməsi faktları verilir. O yazır ki, erməni himayədarları Ermənistanın yeni tarixini yazmaq və kiçik xalqını yüksəltmək üçün qonşu xalqların daha zəngin tarixinə kölgə salmaq istəyirlər. Köhnə tarix bu gün də təkrar olunur. Təkcə Şuşa şəhərindəki 199 memarlıq abidəsindən çoxu, o cümlədən, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi, böyük Azərbaycan şairi M.P.Vaqifin məqbərəsi, XVIII-XIX əsrlərə aid yaşayış evləri və s. abidələr dağıdılıb.

## *Qasım Hacıyev: "Bütün dünya tarixçiləri bilir ki, ermənilər Dağlıq Qarabağa, eləcə də Azərbaycanın digər ərazilərinə "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra köçürülüblər"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev qeyd etdi ki, Dağlıq Qarabağda ermənilərin heç bir tarixi irsinin olmaması böyük həqiqətdir və bunu ermənilər özləri də yaxşı bilirlər. Ermənilər Azərbaycan mədəniyyətinə, tarixinə hər zaman qeyri-obyektiv yanaşıblar. "Cənab Prezidentin çıxışına sonacan baxdım və onun Qarabağ tarixi ilə bağlı söylədiyi faktlar qarşısında Paşinyan danışmağa bir söz tapa bilmədi. Siyasi liderimizin, dövlət başçımızın erməni baş naziri tarixi faktlarla susdurması bizi qürurlandırdı.

Məsələ burasındadır ki, ermənilərin Qafqaza heç bir aidiyyəti yoxdur. Bilirsiniz ki, XX əsrin əvvəllərinə qədər ermənilərin Cənubi Qafqazda dövləti olmayıb və həmin dövrə qədər ermənilər bu ərazilərdə kompakt yaşamayıblar. Ermənilər "din xadimi", "tacir", qaraçı şəklində tək-tük o ölkədə, bu ölkədə yaşasalar da, onlar heç yerdə kompakt şəkildə yaşamayıblar. Onlar Azərbaycana kütləvi şəkildə sonradan köçürülüblər. Ermənilər tarixən Cənubi Qafqazda olmayıblar. Ermənilərin yaratdığı "dövlət" Dəclə-Fərat çayları yaxınlığında Kilikiyada olub. Onlar da ora Egey dənizinin sahillərindən gəliblər və iki yerdə məskən salıblar. Bu dövlət də satraplıq olub. Bununla da adını qoyublar ki, guya "Böyük Ermənistan" olub. Halbuki, ermənilərin fəxr etdikləri və "böyük erməni çarı" kimi təqdim etdikləri Tiqranın özü erməni olmayıb, o, parfiyalıdır, hətta onu tarixi mənbələrdə fars da adlandırırlar. Ermənilər harada qədim nə varsa, onu mənimsəmək istəyiblər. Məsələn, Armeniya dövlətini də özlərinə çıxırlar. Ermənilər Azərbaycan torpaqlarına köçürüldükdən sonra onlar alban mədəniyyətinə sahib çıxırlar. Alban abidələrini, alban tarixi irsini saxtalaşdıraraq "bu abidələr bizimdir" deyirlər. Amma konkret olaraq onu demək olar ki. Əhəmənilər dövründən yaranmış kiçik satraplıqlar ön Asiyada yerləşib. Ondan başqa onların dövləti olmayıb. Cənubi Qafqazda ermənilərin heç bir dövləti olmayıb, bunu bütün dünya bilir. Azərbaycan ərazisinə ermənilər kütləvi şəkildə "Gülüstan" və "Türkmənçay" müqaviləsindən sonra köçürülüblər. Bunu Prezidentimiz də dedi. Bütün dünya tarixçiləri bilir ki, ermənilər Dağlıq Qarabağa, eləcə də Azərbaycanın digər ərazilərinə "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra köçürülüb və bu halda Dağlıq Qarabağda onların tarixi irsi necə formalaşa bilər? Həmin müqavilələrdən sonra 40 min İrandan, 90 min nəfər isə Türkiyədən köçürülüb. İrəvan şəhəri də onlara şərtlə verildi ki, onlar sakit otursunlar. Verilən ərazi də 9,8 min kvadratkilometr idi. Ondan sonra onlar Rusiyanın dəstəyilə həmin ərazini artırıb 28 min kvadratkilometr etdilər. Beləliklə, həm Göyçəni, həm Zəngəzuru birləşdirib Ermənistan Respublikasını yaratdılar. Təbii ki, böyük dövlətlər də onlara kömək edirdilər. Dağlıq Qarabağ mədəniyyəti isə heç vaxt erməni mədəniyyəti ola bilməz. Çünki Dağlıq Qarabağ əhalisinin yaşadığı məişət şəraiti, yaratdığı abidələr, buradakı arxeoloji abidələr və digər məsələlər onu göstərir ki, Dağlıq Qarabağ Azərbaycan türklərinin tarixi torpağıdır. Burada heç bir erməni izi olmayıb. Burada bir dənə də olsun qədim abidədə erməni izlərinə rast gəlmək mümkün deyil. Çünki ermənilər bu torpaqlara gəlmədirlər".

### *"Burada bir dənə də olsun qədim abidədə erməni izlərinə rast gəlmək mümkün deyil"*

Q.Hacıyev ermənilərin iki əsr bundan əvvəl Dağlıq Qarabağa köçürülməsini sübut edən Marağa abidəsini də xatırlatdı. O vurğuladı ki, bu gün ermənilər Cənubi Qafqazın aborigen xalqlarından olduqlarını iddia etsələr də, tarixi faktlar bunun əksini göstərir. Ermənilərin İran və Türkiyə ərazisindən Azərbaycan torpaqlarına köçürülməsini təsdiqləyən yüzlərlə fakt olduğunu deyən müsahibimiz vurğuladı ki, onların Dağlıq Qarabağa köçürülməsini sübut edən faktlardan biri 1978-ci ildə Ağdərədə ucaldılan abidədir. Q.Hacıyev qeyd etdi ki, bu abidə ermənilərin Dağlıq Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə qoyulmuşdu. O dedi ki, bu abidə "Marağa-150" abidəsi kimi tanınır, sonradan elə ermənilərin özləri tərəfindən dağıdılıb. "Bu abidənin açılış mərasimində çıxış edən erməni ideoloqları bildirirdilər ki, ermənilər bu torpağa 1828-ci ildə, "Türkmənçay" müqaviləsindən sonra köçürülüblər və 1978-ci ildə onların bu ərazilərə köçürülməsinin 150 ili tamam olub" - deyə müsahibimiz qeyd etdi.

Qeyd edək ki, Azərbaycan Respublikasının Ağdərə rayonunun Marağa kəndinə İrandan ilk 200 erməni ailəsinin köçürülməsinin 150 illiyi münasibətilə 1978-ci ildə ucaldılmış abidə simvolik məna daşıyır.

Tarixçilər bildirirlər ki, üzərində ermənicə "Marağa-150" yazılmış abidə 1988-ci ildə ermənilərin Azərbaycana ərazi iddiaları başlayanda dağıdılıb. Onlar vurğulayırlar ki, "Marağa-150" dağıntıya məruz qalmasına baxmayaraq, hazırda qalıqları mövcuddur və Azərbaycan Silahlı Qüvvələrinin nəzarətində olan ərazidə yerləşir. Abidənin yerləşdiyi yer hazırkı Şıxarx qəsəbəsidir. Şıxarx qəsəbəsi ilə Tərtər şəhəri arasında 20 dəqiqəlik məsafə var. Bu abidənin ermənilər tərəfindən dağıdılmasının səbəbi onların özlərinə yeni saxta tarix yaratmaq iddiasından irəli gəlir. Alimlər bildirirlər ki, ermənilərin Qarabağa köçürülməsini sübut edən tarixi mənbələrdən biri "Marağa-150" abidəsidir ki, o abidə erməni saxtakarlığını bütün dünyada ifşa edə bilər.

Buradan da açıq görünür ki, ermənilər Dağlıq Qarabağa təxminən 200 il əvvəl köçürülüblər. Bu da ermənilərin burada heç bir tarixi irsinin olmadığını əsaslı şəkildə sübut edir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycan hakimiyyətinin ən üst qatı növbədənkənar parlament seçkilərinin tam demokratik şəraitdə keçirilməsində maraqlı idi. Bunu ölkə başçısı və digər rəsmi şəxslərin seçkidən əvvəl verdikləri bəyanatların ruhundan da görmək mümkün idi. Seçkilər keçirildi.**

# 12 saylı məntəqə seçki komissiyasının üzvü Əfruz Hacıyevanın davranışlarına hüquqi qiymət verildimi...

***Mehman Muradlı:** "Bütün bunların hamısına düzgün hüquqi qiymət verilməlidir"*



Təəssüf ki, açıq müşahidə olunan qanun pozuntuları da üzə çıxdı. Məhz bunun nəticəsidir ki, artıq bir neçə dairənin nəticələri ləğv edilib, bəziləri ilə bağlı araşdırmalar aparılır.

Konkret olaraq ortada kobuq qanun pozuntuları mövcuddur ki, nəticələr ləğv edilir. Seçki saxtakarlığı etmək həm də cinayət sayılır. Dairələr və ya məntəqələrlə bağlı belə hallar müşahidə olunursa və bunun da sonu kimi ümumi nəticələr ləğv edilirsə, deməli, burada söhbət cinayət əməlindən gedir. Özü də bu cinayətə yol verənlər yalnız özlərini ifşa etmir, həm də dövlətimizin imicinə ciddi zərbə vurur, seçkinin ümumi nəticələrini şübhə altına salırlar. Belə aşkar qanun pozuntularına yol verənlərdən biri də 15 saylı Yasamal I Seçki Dairəsinin 12 saylı məntəqəsinin üzvü Əfruz Hacıyevadır. Bu xanımın adı əvvəlki seçkilərdə də prosesə kobud müdaxilə edən adam kimi hallanıb. Son seçkilərdə onun etdiyi qanun pozuntuları ilə bağlı videomateriallar interneti zəbt edib. Həmin kadrlardan görünür ki, qutuya topa bülleten atmaq istəyən şəxsi ifşa edən jurnalist sonra Ə.Hacıyevanın basqısına və açıq təzyiqinə məruz qalır. Ə.Hacıyeva kameraların qarşısında rahatlıqla bu qanunsuzluqları edir və çox məmnun görünməyə çalışır. Maraqlıdır ki, sözügedən xanım bundan əvvəlki seçkilərdə də analoji hərəkətləri ilə yadda qalıb.

Ötən seçkilərdə 12 saylı məntəqə komissiyasının üzvü Ə.Hacıyeva jurnalist fəaliyyəti ilə məşğul olan Cavid Abdullayevə hücum edərək onun saxtakarlıqları lentə almasına mane olub və vəsiqəsini cırıb. Məhz bu cür əməllərin nəticəsi olaraq həmin vaxt 15 saylı Yasamal I Seçki Dairəsinin 12 saylı məntəqəsi buraxılmışdı.

Açıq-aşkar qanun pozuntularına yol verən komissiya üzvləri ilə bağlı hansısa hüquqi addımlar atılmalıdırmı?

Hüquqşünas Mehman Muradlı qəzetimizə açıqlamasında bildirdi ki, seçki prosesinin şəffaf keçirilməsi yalnız istəklə deyil, həm də qanunla tənzimlənən məsələdir: "Bununla bağlı Seçki Məcəlləsi var. Hamının borcudur ki, həmin məcəllənin tələblərinə əməl etsin. Bizim müşahidələr göstərir ki, hətta seçki prosesində elə hallar olur ki, oradakı əməllərə artıq Cinayət Məcəlləsinin tələbləri çərçivəsində yanaşılmalıdır. Söhbət kimisə təhqir etməkdən, kimlərəsə fiziki zor göstərməkdən gedir ki, bunlar artıq cinayət əməli sayılır. Son seçkilərdə baş verən bu halların məntiqi nəticəsi o oldu ki, bəzi dairələrin nəticəsi ləğv edildi. Hətta bu prosesin davamı da ola bilər. Bəzi fərdlərin kobud hərəkəti, işinin öhdəsindən gələ bilməməsi bu vəziyyəti yaradır. Bütün bu hərəkətlərə lazımi hüquqi qiymət verilməlidir. Gəlin etiraf edək ki, seçkidə qanunları yalnız komissiya üzvləri pozmadı. Belə addımlar bəzi namizədlər və onların müşahidəçiləri tərəfindən komissiya üzvlərinə qarşı da edildi. Bütün bunların hamısına düzgün hüquqi qiymət verilməlidir. Dəfələrlə adları kobud qanun pozuntularında hallanan şəxsləri isə növbəti mərhələdə seçki prosesinə buraxmaq lazım deyil".

***Məhəmmədəli QƏRİBLİ***

**Fevralın 9-da keçirilən növbədənkənar parlament seçkilərində parlamentdə yer qazanan partiyalar məlumdur. Yeni Azərbaycan Partiyası ilə yanaşı, bir sıra digər partiyalar da Milli Məclisdə mandat qazanıblar.**

***Fazil Mustafa:** "Digər partiyalardan fərqli olaraq, bizim təşkilat seçkilərin nəticələrinə qiymət verib"*

***Bünyamin Qəmbərli:** "Biz gözləyirik ki, MSK nəticələri tam elan etsin, ondan sonra partiya olaraq öz münasibətimizi bildirəcəyik"*

***Natiq Cəfərli:** "Konstitusiya Məhkəməsi yekun nəticələri elan etdikdən sonra..."*

# Milli Məclis partiyaları seçkinin nəticələrinə niyə qiymət vermir?

Belə ki, VI çağırış Milli Məclisə keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasının (YAP) 74 namizədi qalib gəlib. O cümlədən, Vətəndaş Həmrəyliyi Partiyası (VHP) - 3 nəfər, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP) - 1 nəfər, Azərbaycan Demokratik İslahatlar Partiyası (ADİP) - 1 nəfər, Ana Vətən Partiyası (AVP) - 1 nəfər, Böyük Quruluş Partiyası (BQP) - 1 nəfər, Vəhdət Partiyası (VP) - 1 nəfər, Vətəndaş Birliyi Partiyası (VBP) - 1 nəfər, Azərbaycan Demokratik Maarifçilik Partiyası (ADMP) - 1 nəfərlə budəfəki parlamentdə təmsil olunacaqlar. Respublikaçı Alternativ Partiyası da (REAL) parlamentdə bir mandat əldə edib.

REAL istisna olmaqla (bu partiyanı təşkilatın qurucu üzvü Erkin Qədirli təmsil edir) adıçəkilən partiyaları Milli Məclisdə sədrlər təmsil edəcək.

Ancaq maraqlıdır ki, parlamentə düşən bu partiyaların heç biri MM-yə keçirilən seçkilərin nəticələrinə qiymət verməyib. Söhbət YAP xaric digər partiyalardan gedir. Hansı ki, bu partiyalarda sədrlər mandat əldə etsələr də, digər namizədlər uğur əldə edə bilməyiblər. Onların bəziləri seçkilərin nəticələrindən razı deyillər. Bütün bunlara baxmayaraq, sözügedən partiyalar parlament seçkilərinin nəticələrinə niyə qiymət vermirlər?

Məsələ ilə əlaqədar BQP başqanı Fazil Mustafa ilə əlaqə saxladıq. O, qəzetimizə açıqlamasında rəhbərlik etdiyi partiyanın seçkinin nəticələrinə qiymət verdiyini bildirdi: "Bununla bağlı bizim partiyanın xüsusi qərarı var. Hesab edirik ki, seçkilər azad və demokratik keçirilib. Seçkilərdə müəyyən nöqsanlar olub. Bununla bağlı MSK-nın qanunauyğun araşdırma aparmaq zərurətini qeyd etmişik. Deməyim odur ki, digər partiyalardan fərqli olaraq, bizim təşkilat seçkilərin nəticələrinə qiymət verib".



BAXCP-nin sədr müavini Bünyamin Qəmbərli isə bunu onunla əlaqələndirdi ki, MSK seçkilərin nəticələrini hələ tam elan etməyib: "Məsələ ondadır ki, hələ MSK müzakirələr aparır. Bununla belə, 4 seçki dairəsində nəticələr ləğv edilib. Bəzi məntəqələrdə nəticələr ləğv edilib. Gözlənir ki, belə məntəqələrin sayı artsın. Ona görə də konkret nəticə yoxdur ki, biz buna münasibət bildirək. İkincisi, biz düşünürük ki, Azərbaycan dövlətçiliyi baxımından çox önəmli olan bu parlament seçkilərində qüsurlarla bərabər, sözügedən seçkilərin pozulmasında maraqlı olan qüvvələr də var. Yeni həm ölkə daxilində, həm də ölkə xaricində seçkilərin nəticələrinin pozulmasında maraqlı olan qüvvələr var. Ona görə də biz gözləyirik ki, MSK nəticələri tam elan etsin, ondan sonra partiya olaraq öz münasibətimizi bildirəcəyik".

REAL funksioneri Natiq Cəfərli bunu bir sıra amillərlə əlaqələndirdi: "Konstitusiya Məhkəməsinin qərarından sonra bizim seçkilərin nəticələri ilə bağlı mövqeyimiz olacaq. Sözügedən məhkəmə yekun nəticələri elan etdikdən sonra REAL-ın mövqeyi olacaq. Hesab edirik ki, Konstitusiya Məhkəməsinin qərarını gözləmək lazımdır. Bir problem də odur ki, REAL rəsmi partiya kimi qeydiyyata alınmayıb. Bizim üzvümüz parlamentə düşsə də, partiya hələ qeydiyyata alınmayıb".

***Vidadi ORDAHALLI***

# ABŞ-ın Avropada Rusiya əleyhinə "sıxılmış qaz" planları, qarşıdurmada Azərbaycan qazının öz yeri var

**ABŞ və Rusiyanın Avropa qaz bazarı uğrunda rəqabətinin daha kəskin xarakter aldığı bir vaxtda Azərbaycan hasil etdiyi mavi yanacağı Qərb istehlakçılarına çatdırmaq istiqamətində fəal iş aparır. Görünən budur ki, yaranmış vəziyyətdə məhz Azərbaycan avropalı istehlakçılar üçün yeni etibarlı tərəfdaş statusunu qazanacaq.**

Çünki ölkənin enerji siyasəti hansısa geosiyasi, geoiqtisadi çəkişmədən uzaqdır. Elə bu fonda Azərbaycan təbii qazını Avropaya nəql edəcək infrastrukturun son halqası sayılan TAP boru kəməri ilə bağlı işlərin mühəndis, təchizat və tikinti tərəfi də daxil olmaqla 92 faizi tamamlanıb.

Məlumata görə, TAP-ın quru hissəsində, Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların hamısı torpağa basdırılıb. Ötən ilin noyabrında TAP-ın Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə başlanıb. Belə ki, Yunanıstandakı Evros çayı ilə Kipoidəki kompressor stansiyası arasında boru kəmərinin 2 kilometrlik hissəsinə təbii qaz qəbul edilib. Bu, boru kəmərinin istismara verilməsi prosesinin ilkin mərhələsidir. Həmin prosesin məqsədi boru kəməri infrastrukturunun tamamilə təhlükəsizliyini və işlər başa çatdıqdan sonra istismara hazır olmasını, eləcə də milli və beynəlxalq təhlükəsizlik, həmçinin istismar standartlarına uyğun olmasını təmin etməkdir. Təbii qazın boru kəməri sisteminə daxil edilməsi "Şahdəniz-2" qazının Avropaya tədarükünün başlanğıcı üzrə növbəti mərhələdir. TAP vasitəsilə ticari məqsədlə qaz nəqli 2020-ci ilin oktyabrında, yəni İtaliyaya qədər olan hissənin tam istifadəyə veriləcəyi və sınaqdan keçiriləcəyi vaxtda gözlənilir. İlk mərhələ istifadəyə verildikdən sonra təbii qazın tədricən boru kəmərinin Yunanıstan marşrutunun digər hissələrinə, eləcə də Albaniya və İtaliyaya mərhələli şəkildə nəql edilməsinə başlanacaq. TAP-ın quru hissəsinin inşası üzrə İtaliyada da boruların tikintisinə başlanıb. TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.




Bütün bunlar Azərbaycan qazının etibarlı şəkildə Avropaya çatdırılması istiqamətində mühüm addımların atıldığını bir daha təsdiqləyir. Özü də bunlar o vaxt baş verir ki, ABŞ və Rusiyanın qaz rəqabəti və bir-birinə manea yaramaq cəhdləri daha geniş miqyas alır. Artıq məlumdur ki, Rusiya ərazisindən başlayan və Baltik dənizinin dibi ilə Almaniyaya çəkilən "Şimal axını-2" təbii qaz boru kəmərinin tikintisində iştirak edən şirkətlərə qarşı ABŞ administrasiyasının tətbiq etdiyi sanksiya bu layihənin yekunlaşmasını xeyli ləngidib. Kəmərin operatoru, Rusiya enerji nəhəngi olan "Qazprom" şirkəti birdirir ki, layihəni özləri müstəqil şəkildə bitirəcəklər. Gözlənildiyinə görə, bu qaz boru kəməri 2021-ci ilin əvvəlində işə salınacaq. Halbuki, kəmər hələ ötən ilin sonunda istifadəyə verilməli idi. ABŞ yaranmış vəziyyətdə hesab edir ki, "Şimal axını-2" Avropanı daha təhlükəli hala gətirərək, enerji sahəsində qitəni Rusiyadan asılı vəziyyətə salır. Ekspertlər isə xatırladır ki, son dövrlər Amerikada zəngin qaz yataqları aşkarlanıb. Vaşinqton Avropanı potensial müştəri qismində görür. Sözsüz ki, ABŞ-ın buradakı başlıca məqsədi öz sıxılmış təbii qazını Avropa bazarına göndərməkdir. Ancaq Rusiya qazının Avropaya axını ABŞ-ın istəklərinə manea yaradır. ABŞ dövlət katibinin enerji resursları üzrə müavini Fren Fennon məsələ ilə bağlı bildirir:"Biz görürük ki, bir çox ölkə Rusiyadan təbii qaz almağa davam edir. Ancaq orada heç bir rəqabət yoxdur. Orada şəffaflıq varmı? Ümumiyyətlə, orada bazar mövcuddurmu? Harada ki, yalnız bir tədarükçü var, bu bazar deyil". Fren Fennonun sözlərinə görə, Rusiya enerji cəbhəsində ABŞ tərəfindən gələ biləcək rəqabətdən və vəziyyətin dəyişilməsindən qorxur: "Rusiya görür ki, ABŞ-dakı təbii qazın qiyməti aşağıdır və elə bu səbəbdən rəqabət yarana bilər. Biz sıxılmış təbii qazın Avropaya ixracını ikiqat artırmaq niyyətindəyik. Ruslar bərk narahatdır. Biz bu cür mənzərəni artıq bir neçə dəfə görmüşük. ABŞ-dan və ya digər mənbədən sıxılmış təbii qaz alınması perspektivi meydana çıxan kimi rusların danışıqlardakı mövqeyi dəyişir. "Qazprom" dərhal öz qazının qiymətini aşağı salır". Hazırda ABŞ-ın əsas məqsədi "Şimal axını-2"nin çəkilişini əngəlləməkdir. Lakin Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin bildirir ki, "Şimal axını-2" kəmərinin tikintisi ABŞ-ın yeni sanksiyalarına rəğmən başa çatdırılacaq:

"ABŞ-ın bütün təzyiqlərinə rəğmən, "Şimal axını-2"nin tikintisi uğurla başa çatacaq. Rusiya Xarici İşlər Nazirliyi bunu reallaşdırmağı hədəfləyib". Eyni zamanda, ABŞ-ı Avropa bazarından sıxışdırıb çıxarmaq istiqamətində də Rusiya müvafiq addımlar atır. Belə vəziyyətdə Rusiya və ABŞ-ın Avropanın enerji təminatında etibarlı rol alması ciddi sual altına düşür. Elə bu durumda Avropanın etibarlı tərəfdaşa ehtiyacı artır və indiki halda bu tərəfdaş qismində məhz Azərbaycan çıxış edir.

Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviç də bunu təsdiq edərək bildirir ki, Azərbaycan sayəsində Xəzər regionundan qazın Avropaya nəqli üzrə səylər yekun mərhələyə daxil olur. O xatırladır ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycanın energetika naziri Pərviz Şahbazovla görüşüb: "Biz birlikdə enerji təhlükəsizliyinin möhkəmləndirilməsi üzərində böyük səylə işləmişik. Xəzər regionundan qazın Avropaya nəqli üzrə səylərimiz yekun mərhələyə daxil olur". İtaliyalı ekspert Culyetto Kyeza da xatırladır ki, "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılması Avropa üçün böyük əhəmiyyət kəsb edir, eləcə də Azərbaycanın beynəlxalq arenada Avropanın enerji təhlükəsizliyinin təminatçısı qismində imicinin artmasına xidmət edir. Onun sözlərinə görə, bu cür mürəkkəb layihənin mərhələli şəkildə reallaşdırılması onun bütün iştirakçılarının məqsədyönlü fəaliyyətini nümayiş etdirdi: "Ötən il Türkiyə-Yunanıstan sərhədinə çatmış TANAP əsas qaz kəmərinin reallaşdırılması Avropanın diqqətini cəlb etmiş əlamətdar hadisə oldu. Bu gün dünyada sona çatmaqda olan bu prosesi diqqətlə izləyirlər. Bu cür irimiqyaslı layihənin reallaşdırılması tarixi hadisədir. Bu, Azərbaycanın bütün dünyada nüfuzunu artıran yüksək səviyyəli layihədir.

Faktiki olaraq, Azərbaycan "Cənub Qaz Dəhlizi" vasitəsilə Avropanın enerji xəritəsini dəyişir. Azərbaycan qazının Avropa bazarlarına nəqli bütün idxalatçı ölkələrin marağındadır və bu həmin layihənin Avropa İttifaqı tərəfindən dəstəklənməsi üçün ciddi əsasdır. "Cənub Qaz Dəhlizi"nin işə düşməsi Azərbaycanın tarixi qələbəsi olacaq. Bu gün dünya gündəmində ölkələrin mili təhlükəsizliyinin də asılı olduğu enerji təhlükəsizliyi ilə bağlı çağırışlar yer alır. Bu baxımdan "Cənub Qaz Dəhlizi"nin rolu əvəzolunmazdır". Bir daha qeyd edək ki, "Cənub Qaz Dəhlizi" ilə Azərbaycan qazının Avropaya nəqli bu il başlayacaq.

***Ramil QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Münhendə Qarabağ debatına beynəlxalq reaksiyalar da Ermənistan liderini "yerlə bir etdi"...

**Dağlıq Qarabağ münaqişəsi tarixində ilk dəfə olaraq Azərbaycan və Ermənistan rəhbərlərinin beynəlxalq ictimaiyyətin gözü önündə açıq debatı Dağlıq Qarabağ münaqişəsi ətrafında maraqlı bir vəziyyət yaradıb. Bu barədə danışmazdan öncə qeyd edək ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən debatda dünya Qarabağ məsələsində Azərbaycanın tam haqlı tərəf olduğuna bir daha şahidlik etdi.**

Digər tərəfdən, debat fonunda daha bir vacib nüans özünü qabarıq şəkiləd büruzə verdi. Çünki masanın bir tərəfində Azərbaycan, digər tərəfində Ermənistan əyləşmişdi. Bu da o demək idi ki, münaqişə tərəfləri masa ətrafında əyləşənlərdir və İrəvanın "Qarabağ münaqişə tərəfidir" iddiası elə bu debat formatı fonunda tam sıradan çıxmış oldu. Məsələni dəyərləndirən beynəlxalq ekspertlər də bildirir ki, Münhen debatı Qarabağ münaqişəsinin sonrakı gedişinə mütləq mənada öz təsirini göstərəcək. Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev bu xüsusda bildirir ki, erməni tərəfi uzun illər problemin birbaşa konstruktiv müzakirəsindən boyun qaçırıb: "Münhendəki panel diskussiyası bunun səbəbini göstərdi. Rəsmi Ermənistanın birinci şəxsi Nikol Paşinyan işğal olunmuş ərazilərə öz ölkəsinin iddiasını əsaslandırmaqdan ötrü az qala çox tələsik uydurulmuş tarixi faktları səsləndirməyi özünə rəva görür və coğrafi səhvlər buraxırdı. Bununla belə, Azərbaycan prezidenti İlham Əliyev son dərəcə əsaslı və dəqiq idi, hamıya məlum olan faktları ciddi şəkildə əsaslandırırdı, bizim eradan əvvəl guya mövcud olan presedentlərə istinad etmirdi. Erməni qanunsuz birləşmələrinin Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi, qəddarlığına görə misli görünməmiş Xocalı soyqırımını törətməsi faktdır. Ermənistan hökumətinin beynəlxalq hüququn Azərbaycan ərazilərini geri qaytarmağı tələb edən normalarını yerinə yetirməməsi faktdır. Bu da faktdır ki, Paşinyan, guya Dağlıq Qarabağın müstəqilliyini müdafiə etməkdən ötrü onu erməni torpağı adlandırır. Münhendə hər kəs Ermənistan hökumətinin mövqeyinin nə qədər etibarsız, Ermənistanın rəsmi hakimiyyətinin öz iddialarında nə qədər inamsız olduğuna bir daha əmin oldu. Öz tərəfimdən şəxsən onu əlavə etmək istəyirəm ki, nəhayət, dövlətin ərazi bütövlüyünün bərpa edilməsi üçün işğal olunmuş bütün ərazilər dərhal və hər hansı əlavə şərt olmadan Azərbaycana qaytarılmalıdır".

Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktor müavini Darya Qrevtsovanın da məsələyə yanaşması kifayət qədər maraqlıdır. O bildirir ki, Münhen konfransında məlum debat "siyasi boks" üslubunda duel idi: "Müşahidəçilərin mütləq əksəriyyəti qeyd edirlər ki, xalların sayına görə Azərbaycan prezidenti İlham Əliyev inamlı qələbə qazandı. İlham Əliyev bir neçə dəfə Nikol Paşinyanın səhvlərini tutub. O bunu Stalinin heç də Dağlıq Qarabağı Azərbaycanın tərkibinə vermədiyini və Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalacağını təsdiq etməklə etdiyini dedi. Həmçinin İlham Əliyev Şaumyan rayonunun sovet dövründə Dağlıq Qarabağa məxsus olması barədə Paşinyanın iddiasını da ifşa edib. O qeyd edib ki, bu rayon heç vaxt Dağlıq Qarabağın tərkibində olmayıb. Hətta Nikol Paşinyan tələsik və çaşqın vəziyyətdə öz səhvini etiraf etməli olub".

Ekspert vurğulayıb ki, bu cür mötəbər tədbirlərdə faktlarla bağlı səhvlərə yol verilməsi tamamilə qəbuledilməzdir: "Hər hansı lider bir dəfə səhvə yol verə bilər, lakin bütün dünya arenası qarşısında, mühüm siyasi diskussiya zamanı, dünya təhlükəsizliyi üzrə əsas tədbirdə bunu etmək sadəcə bağışlanmazdır. Bu, onu göstərir ki, İlham Əliyevlə müqayisədə Paşinyan dünya siyasətçilərinin sadəcə başqa, ən aşağı kateqoriyasına daxildir". Macarıstanın Dunayvaroş Universitetinin tədqiqatçısı Oleksandr Boyko da eyni mövqeni sərgiləyir:"Azərbaycan liderinin çıxışında çoxillik təcrübə özünü göstərirdi. Bunu öz inqilabları haqqında dünyaya car çəkən erməni baş nazir haqqında söyləmək mümkün deyil. Onun fikirləri müzakirə olunan mövzuya aid deyildi. Bu kimə maraqlı idi ki? Hiss olunurdu ki, Paşinyan bu cür yüksək beynəlxalq podiumlara çıxmağa hazır deyil. Çar Tiqranın və ya Paşinyanın bəhs etdiyi digər sülalələrin dövrünün münaqişənin həllinə dəxli yoxdur. Ümumiyyətlə deməliyəm ki, bu cür uzaq zamanlara ekskursiyalar sırf diletantların işidir. Çünki onlar deməyə söz tapmırlar və beynəlxalq hüquq çərçivəsində söhbət apara bilmirlər. Adətən, bu cür söhbətləri parkda oturan təqaüdçülər, taksi sürücüləri, tumsatanlar aparır. Paşinyanın bir mövzudan digərinə, müasir dövrdən qədim vaxtlara amplituda sıçrayışları onunla yekunlaşdı ki, baş nazir çox danışmasına rəğmən ciddi heç bir şey söyləmədi və bununla da Azərbaycan prezidentinə dəqiq arqumentli zərbələr endirmək imkanı verdi. Bu səbəbdən Paşinyanın Münhendəki çıxışı Ermənistan üçün müsbət heç bir şey gətirmədi. Bu onun tarixində qara gün oldu". Ukrayna Analitika Mərkəzinin rəhbəri Aleksandr Oxrimenko isə bildirir ki, Paşinyan ayrı-ayrı ekspertlərin, o cümlədən Ermənistan ekspertlərinin gözündə belə zəif siyasətçidir. Onun sözlərinə görə, Dağlıq Qarabağ haqqında hər hansı diskussiya ən əsas məsələyə əsaslanmalıdır: "Paşinyanın üzərinə çox ağır yük qoyulub və bu yük nə onun, nə də bütövlükdə Ermənistan siyasətinin qaldıra biləcəyi yük deyil". Rusiyalı politoloq Yevgeni Mixaylov da məsələni maraqlı rakursdan şərh edir: "Münhendə keçirilən bu qarşılaşma baş nazir Nikol Paşinyanın tutduğu vəzifəyə qətiyyən uyğun gəlmədiyini bütün dünyaya göstərdi. Görüş zamanı bir siyasətçinin bundan daha acınacaqlı vəziyyətə düşməsini təsəvvürə gətirmək mümkün deyil". Rusiyalı politoloq vurğulayıb ki, Azərbaycan prezidentinin Dağlıq Qarabağla bağlı inamlı və qətiyyətli nitqi ilə müqayisədə Ermənistan baş nazirinin dedikləri dünya ictimaiyyətinin nəzərində son dərəcə sönük və acizdir:"Kimin hansı savada sahib olduğu dərhal sezildi. Diplomatik münasibətlərdən ali təhsil almaq hara, iki milyonluq respublika səviyyəsindəki qəzetlərdə cızma-qaralar dərc etdirmək hara". Mixaylov qeyd edib ki, Azərbaycan prezidenti öz nitqini beynəlxalq hüquq müddəalarına əsasən qurduğu halda, Ermənistanın baş naziri yalnız "böyük Ermənistan nağılları"ndan dəm vurdu:"Onun acizliyi tamamilə məntiqli olaraq diqqət çəkdiyi İrəvanda belə Münhen konfransında göstərdiyi zəifliyə görə çox sərt tənqidlərə tuş gəldi. Hətta Əliyevlə Paşinyanın əl sıxdıqları fotoşəkildə belə Azərbaycan prezidentinin Paşinyandan istər fiziki, istərsə də ovqat sarıdan nə qədər üstün olduğunu sezmək üçün böyük psixoloq olmaq vacib deyil. Azərbaycan xalqının haqlı olduğuna əmin olan liderinin yanında Paşinyan kiminləsə tanış etmək istədikləri utancaq qız kimi nəzərlərini kənara yayındırır, üzə şax baxmağa cürət etmidi". Rusiyalı tanınmış tarixçi Oleq Kuznetsov bildirir ki, Münhen Təhlükəsizlik Konfransı Azərbaycan və Ermənistan xalqlarının yaddaşında İlham Əliyevlə Nikol Paşinyan arasında Dağlıq Qarabağ ətrafında gedən müzakirələrlə qalacaq: "İlham Əliyev və Nikol Paşinyan təşkilatçılar tərəfindən bilərəkdən üz-üzə oturdulmuşdu, aralarında isə "hakim" yer almışdı. Diskussiya barədə uzun danışmağa ehtiyac yoxdur, cəmi iki sözlə onu xarakterizə etmək olar - "uşağı döymək". Rusiyalı tarixçi həmçinin əlavə etdi ki, İlham Əliyevin qələbə çalacağı əvvəlcədən bəlli idi. Çünki o, hər bir göstəriciyə - istər ingilis dili biliyi, ümumi erudisiyası, istərsə də özünü aparmaq qabiliyyəti və özünü auditoriyaya təqdim etmək bacarığına görə opponentini üstələyirdi: "Paşinyanın intellektual mövqeyinin zəif cəhəti ondan ibarət idi ki, o, tutarlı arqumentlərə deyil, Ermənistanın daxili auditoriyası üçün nəzərdə tutulmuş və beynəlxalq normalara zidd ideoloji stereotiplərin və təbliğat doqmalarının kompleksinə əsaslanırdı. Lakin bu, prezident Əliyevi heç narahat etmirdi, çünki o, rəqibinin bacarıqsızlığını dərhal anlamışdı və onu məntiqi arqumetlərlə çıxılmaz vəziyyətə salırdı. Şübhəsiz, "Əliyev - Paşinyan" intellektual duelində birmənalı qalib, hətta texniki nokautla qələbə qazanan Azərbaycan prezidenti oldu".

Beynəlxalq ekspertlərin bu yanaşmalarını ermənilər özləri də qəbul edir. Bütöv Erməni Milli Tərəqqi təşkilatının həmsədri Lusine Aroyan-Dəlləkyan bu fonda Paşinyanın biabırcasına məğlub olduğunu bəyan edib: "Biz biabırcasına uduzduq. Erməni olmasaydım, Əliyevə inanardım. O yaxşı hazırlaşmışdı, jestlərin dili savadlı seçilmişdi. Paşinyan nə bir suala tam cavab verdi, nə də əks-zərbələr vurdu. Əliyev öz xeyrinə onu oynadı ki, Qarabağ Azərbaycanın tərkibindədir. Paşinyan bu sahədə lazımlı biliklərə malik deyildi və yarımçıq cavabları onu gülməli vəziyyətə qoydu. O, həmçinin, Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanmasının qeyri-mümkünlüyü barədə heç nə deyə bilmədi. Yaxşı ki, sonra köməyinə Böyük Tiqran yetişdi. Amma qələbə artıq Əliyevin tərəfində idi". Siyasətçi əlavə edib ki, Paşinyan Xankəndinin tarixi ilə bağlı da heç bir söz deməyib və izləyicilərdən ona "mikroinqilabları" barədə sual vermələrini istəməklə özü haqda yazıq zəif elçi təəssüratı yaradıb. Digər erməni ekspert Artak Vardanyan isə qeyd edir: "Bizim baş nazirə istənilən rəsmi tədbirdə ingiliscə danışmaq qanunvericilik səviyyəsində qəti qadağan edilməlidir! Bilirəm ki, heç onun ruscası da yaxşı deyil. Çünki dinləmək məcburiyyətində qalmışam, ona görə deyirəm. Lakin onun ingiliscəsi sadəcə olaraq qorxuncdur! Yarımçıq frazalar. Uyğun sözün əzablı axtarışı, öz bədəninin müxtəlif hissələrini qeyri-ixtiyarı qurdalama. Onun münaqişənin tarixçəsi və mahiyyəti barədə bilikləri, baxmayaraq ki, iki ilə yaxındır ölkəyə rəhbərlik edir, tamamilə səthidir və Paşinyan hələ də sarı bulvar qəzetinin üçüncü növ reportyoru səviyyəsində qalıb". Politoloq Andranik Tevanyan isə belə yazıb: "Paşinyan yenidən sübut etdi ki, dövlət başçısı kostyumu onun əyninə çox böyükdür". Ermənistanın "Antifeyk" nəşri yazır ki, Paşinyan Münhendə məsxərə obyekti də oldu və "çar Tiqran dövrü" onu daha rəzil duruma saldı. Bütün bunlar bir daha təsdiq edir ki, əslində, Münhen Təhlükəsizlik Konfransı Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini əhəmiyyətli dərəcədə gücləndirən yeni bir səhifə açıb.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Suriyanın İdlib şəhəri ətrafında baş verənlər Ankara və Dəməşq arasında savaşı daha sürətlə yaxınlaşdırmaqda davam edir. Tərəflərin burada böyük hərbi qüvvə cəmləşdirməkdə davam etməsi, böyük güclərin proseə pərdə araxasından müdaxiləsi vəziyyəti daha da gərginləşdirir.**

# Əsəd-İran-Rusiya üçlüyü İdlib-Hələb xəttində Türkiyəni təkləyir, NATO da soyuq yanaşdı...




Yaranmış durumda BMT XXI əsrin ən böyük humanitar faciəsinin qarşısını almaq üçün Suriyanın şimal-qərbində atəşi təcili dayandırmağa çağırır.

BMT baş katibinin humanitar məsələlər üzrə müavini Mark Loukok bildirib ki, güclü təsirə malik Təhlükəsizlik Şurasının üzvləri fərdi maraqların öhdəsindən gəlsələr və humanizmi başlıca prinsip seçsələr, XXI əsrin ən böyük humanitar faciəsindən qaçmaq mümkün olacaq. Mark Loukokun sözlərinə görə, regionda güc tətbiqi yeni və dəhşətli səviyyəyə çatıb. O əlavə edib ki, Rusiya və İran tərəfindən dəstəklənən Suriya rejiminin dekabrda başlayan hücum əməliyyatı təxminən 900 min insanın öz yerini dəyişməsinə gətirib çıxarıb. Amma BMT-nin çağırışına baxmayaraq, Suriyada vəziyyət gərginləşməkdə davam edir. Eyni zamanda, Türkiyə Silahlı Qüvvələri və Bəşər Əsəd rejimi ilə dəstəkçiləri arasında yaşanan qarşıdurmalar yeni qanlı savaşı da istisna etmir.

Əsəd rejiminin İdlibdəki irəliləyişi Türkiyə və Rusiya arasında gərginliyi artırıb. Bölgədə gərginliyi azaltmaq və İdlib probleminə həll yolu tapmaq üçün Ankara-Moskva xəttində intensiv görüşlər keçirilir. Bu çərçivədə Rusiyadan bir heyət ötən həftə Ankaraya səfər həyata keçirmişdi. Ardınca Türkiyədən hərbi və diplomatik nümayəndələrdən ibarət heyət Moskvaya gedib. Qeyd edək ki, Ankara toplantısında İdliblə bağlı hər hansı nəticə əldə olunmamışdı. Diplomatiyadan son şanslarına qədər istifadə edən rəsmi Ankara Rusiya ilə görüşlərdən yekun nəticə əldə edə bilməsə, hərbi varianta üz tutacaq. Xarici işlər naziri Mövlud Çavuşoğlu Münhen Təhlükəsizlik Konfransında bu xüsusda bildirib:"Diplomatiya olmasa, lazımi addımlar atılacaq. Rejim müşahidə məntəqələrindəki əsgərlərimizi hədəfə alır. Buna icazə verməyimiz mümkün deyil".

Son məlumatlara görə isə, Rusiyanın havadan raket zərbələri ilə dəstəklədiyi Suriya hökumət qüvvələri ölkənin Hələb vilayətində xeyli irəli gedib, üsyançıların əlində olan regionun böyük hissəsini tutublar. Bəşər Əsədin devrilməsini istəyən üsyançıları dəstəkləyən Türkiyə isə Rusiyanı İdlib regionunda hücumları dayandırmağa çağırıb, xəbərdarlıq edib ki, Suriya qüvvələri ayın sonunadək geri çəkilməsələr, onları çıxarmaqdan ötrü hərbi gücə əl atacaq. Türkiyənin dəstəklədiyi üsyançılar isə hökumət qüvvələrinin ələ keçirdiyi ərazilləri geri qaytarmaqdan ötrü İdlibdə əməliyyata başlayıblar. Türkiyənin "Anadolu" xəbər agentliyi bildirib ki, hərbçilər, tanklar, hərbi maşın və avadanlıqdan ibarət 100 maşınlıq karvan İdlibə göndərilib. Türkiyə indiyədək İdlibdəki müşahidə postlarının gücləndirilməsinə minlərlə əsgər və yüzlərlə hərbi avadanlıq karvanı yollayıb. Türkiyənin hakimiyyətyönümlü "Yeni Akit" qəzeti Silahlı Qüvvələrdəki mənbələrə istinadən belə bir vaxtda sensasion məlumat yayıb. Burada iddia olunur ki, Suriyanın şimalındakı İdlib vilayətində bu ayın əvvəlində Türkiyə ordusunun hərbi konvoyuna zərbə endirən Əsəd qüvvələri deyil, həmin vaxt region üzərində uçuşlar keçirən Rusiya təyyarəsi olub. Bildirilir ki, hücumun Rusiya təyyarəsi tərəfindən həyata keçirildiyini zirehli texnikanın və onları daşıyan qoşquların güclü zədə alması, eləcə də regionda yerləşdirilmiş radardan alınan məlumatlar da təsdiqləyir. "İndiki konyunktura hücumu rusların həyata keçirdiyini elan etmək strateji olaraq düzgün olmazdı, ona görə də günahkar olaraq Suriya rejimi elan edilib". Mənbə iddia edir ki, Türkiyə tərəfi hadisədən sonra Rusiya ilə əlaqə saxlayıb və qərara alınıb ki, məsələ diqqətlə araşdırılsın. Və aparılmış araşdırma hücumun Rusiya təyyarsindən edildiyini təsdiqləyən ciddi faktlar aşkarlanıb. Bu isə Suryiada qarşıdurmanın miqyasının daha geniş xarakter alacağını istisna etmir.

Son məlumatlara əsasən, Suriyada yüz minlərlə dinc sakinin sığındığı İdlib-Hələb xəttində artıq insident şiddətlənib. Belə vəziyyətdə Türkiyə NATO-nun da prosesə müdaxiləsini istəyir. Amma NATO Türkiyənin Suriyanın şimalında keçirə biləcəyi antiterror əməliyyatına dəstək vermək niyyətində deyil. TASS agentliyinə alyans ölkələrindən birinin Brüsseldəki təmsilçisinin verdiyi məlumata görə, NATO-nun Müdafiə nazirlərinin son iclasında Türkiyəyə hərbi dəstək məsələsi qaldırılmayıb. Bu xüsusda danışan hərbi mənbə qeyd edib ki, ittifaq Türkiyənin, lazım gələrsə, Suriya ordusunun İdlibdə qarşı-qarşıya gələ biləcəyindən çox, Dəməşqin müttəfiqləri - İran və Rusiya ilə toqquşmasının potensial risqlərindən narahatdır. Bununla belə, digər hərbi mənbə TASS müxbirinə bildirib ki, NATO Türkiyə ordusunu ittifaq dövlətləri arasında döyüşə ən yaxşı hazırlıqlı qüvvələrdən biri hesab edir. Buna görə də alyansın əlavə dəstəyinə ehtiyac duyacağını güman etmir. Hazırkı şəraitdə də Rusiyanın dəstəyini alan Başər Əsəd rejiminin Türkiyə Silahlı Qüvvələrinin mövqelərinə hücum etməsinin rəsmi Moskva ilə Ankara arasındakı münasibətlərə necə təsir göstərəcəyi maraq dairəsindədir. "Vzqlyad" qəzeti ən çox səsləndirilən ehtimalları 4 kateqoriyada toplayıb: Birinci ssenari: Əsəd rejimi İdlibdə dinc sakinlərə qarşı hücumlarını dayandıracaq, böhran hələlik dondurulacaq. İkinci ssenari: Türkiyə Əsəd rejiminə qarşı genişmiqyaslı əməliyyata başlayacaq. Bu durumda Rusiya Türkiyə ilə qətiyyən qarşı-qarşıya gəlməyəcək. Türkiyə ilə insidentə daxil olmaq Rusiyanın maraqlarına uyğun olmaz, əksinə, Rusiya Türkiyə ilə əməkdaşlığının davamında, hətta gücləndirilməsində maraqlıdır. Bu səbəbdən qarşıdurma vəziyyətində rəsmi Moskva Türkiyəyə müharibənin qarşısını ala biləcək təklif də verə bilər. Üçüncü ssenari: Əsəd rejimi İdlibdəki irəliləyişini dayandıracaq. Qismən geri çəkiləcək. Çəkilmədiyi bölgələrə qarşılıq olaraq Rusiya Türkiyəyə PKK terror təşkilatının işğal etdiyi nöqtələri geri verə bilər. Bu proqnozu müdafiə edənlər Rusiyanın PKK mövzusunda ciddi görüşlər keçirdiyini iddia edir. Dördüncü ssenari: Türkiyə, Əsəd rejimi, İran, Rusiya və hətta digər aktorların da daxil olduğu bir ortam yaradıla bilər. Ancaq bu ehtimalı kimsə istəmir, hətta ssenarilər arasında gerçəkləşmə ehtimalı ən aşağı olan variantlar sırasındadır.

Türkiyənin "Habertürk" portalı isə məsələ ilə bağlı yazır:"Prezident Ərdoğan son iki nitqində Dəməşq güclərinin müşahidə məntəqələrinin gerisinə çəkilməsi üçün bu ayın sonunadək vaxt verib. Əks halda, "Bu işi birbaşa Türkiyənin özünün edəcəyini" söyləyib. Müharibə yerinə aşağı intensivlikli münaqişəni seçən Ankara bir tərəfdən radikallara qarşı "zor tətbiq edəcəyini" açıqlayıb, digər tərəfdən də silahlı gücünü meydanda tutaraq, diplomatiya yolu ilə irəliləməyə çalışır".

***Nahid SALAYEV***

# Azərbaycanda bir nəfər də olsa qadın siyasi partiya sədri yoxdur...

**Siyasət incə və maraqlı, eyni zamanda da çevik düşüncə, ağıl tələb edən bir sənətdir. Sözsüz ki, hər siyasətlə məşğul olana da "siyasətçi" demək olmaz, o gərək bu sənətin bütün parametrlərinə uyğun olsun.**

Azərbaycanda kişilərlə paralel olaraq qadınların da siyasətlə məşğul olması, onların bələdiyyə, parlament seçkilərində aktiv iştirak etməsi göz önündədir. Amma qadınlar bununla kifayətlənirlər, onlar arasında siyasi partiya lideri olmaq istəyənlər, demək olar ki, yoxdu. Olsaydı, hər halda, onlar bununla bağlı iddialarını ortaya qoyardılar.

Azərbaycanda 55 siyasi partiya var və onların heç birinin sədri qadın deyil. Bir neçə il əvvələ qədər yeganə qadın siyasi partiya sədri Azərbaycan Liberal Partiyasının sədri, professor Lalə Şövkət Hacıyeva idi, o da artıq partiya sədri kimi fəaliyyət göstərmir.

Azərbaycanda qadınların siyasi partiya sədri olmasına nə mane olur? Onlar niyə siyasi partiyaların sədri vəzifəsində təmsil olunmurlar?

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə qadınların hansı səbəbdən partiya sədri ola bilmədiklərinə dair fikirlərini söylədi: "Bu fikir ATƏT-in hesabatında da yer almışdı. Eyni zamanda, hesabatda qeyd edilmişdi ki, həm partiya sədrlərinin, həm də deputatlığa namizədlərin yarısının qadın olması qanunvericilikdə öz əksini tapmalıdır. Amma bu hüquqi bir presedent kimi heç bir hüquqi dövlətdə, cəmiyyətdə ortaya çıxa bilməz. Bu mümkün olan məsələ deyil. Qadınların siyasətdə önə çıxması üçün Azərbaycanda kifayət qədər münbit şərait var. Ölkədə bununla bağlı konkret olaraq nümunə var. Bildiyiniz kimi, ölkəmizin birinci xanımı Mehriban Əliyeva həm Yeni Azərbaycan Partiyası sədrinin müavinidir, həm də ölkənin Birinci vitse-prezidentidir və öz fəaliyyəti ilə nəinki Azərbaycan qadınlarına, bütövlükdə, Azərbaycan cəmiyyətinə örnək olan bir xanımdır. Bu aspektdən də bizdə nümunə var. Azərbaycan qadınları da bu gün cəmiyyətimizdə mövcud olan qanunvericilikdən istifadə edərək siyasi fəaliyyətlə məşğul ola və siyasi proseslərin ön cərgəsinə çıxa bilərlər. Bunun üçün, ilk növbədə, qadınların özlərinin addım atmasına ehtiyac var. Düşünürəm ki, siyasi mübarizədə qadın-kişi anlayışları yanlış yanaşmadır. Burada göstərici intellekt, bacarıq, çeviklik, siyasi analitika və digər bu kimi faktorlar olmalıdır, təbii ki, vətəndaş mövqeyi ön cərgədə getməlidir. Qadın siyasi partiya sədri olsun deyə kimsə bunun üçün bir siyasi partiya yaratmayacaq və qadını da həmin partiyanın başına gətirməyəcək. Belə yanaşmanın özü də absurd bir yanaşmadır. Siyasi proseslərdə mübarizə yalnız qanunvericilik çərçivəsində və ədalətli şəkildə aparılmalıdır".






***Elçin Mirzəbəyli:** "Bunun üçün, ilk növbədə, qadınların özlərinin addım atmasına ehtiyac var"*

***Əli Orucov:** "İnanıram ki, qadınlarımız yaxın dövr ərzində aparıcı partiya liderlərinə çevrilə biləcəklər"*

E.Mirzəbəyli vurğuladı ki, hansısa bir qadına onun bacarıq, istedad və digər kriteriyalarını nəzərə almadan siyasi partiyada məhz qadın olduğu üçün üstünlük versək, bununla qadının özünə qarşı düzgün münasibət bəsləmiş olmarıq. Bunun ədalətsiz siyasi rəqabətə yol açan bir faktor olduğunu qeyd edən E.Mirzəbəylinin sözlərinə görə, qadınlar özləri öz aktivliyi, bacarığı, istedadı ilə öndə olmağı bacarmalıdırlar: "Mən də Azərbaycan cəmiyyətində qadınların siyasətdə fəal olmasının tərəfdarıyam. Amma bunun üçün onlar, ilk növbədə, öz potensiallarını ortaya qoymalıdırlar. Belə deyək, başqa bir vasitələrlə yox, sırf siyasi mübarizə, siyasi intellekt, bacarıq müstəvisində siyasi proseslərin ön cərgəsinə çıxmağı bacarmalıdırlar, digər kriteriyalar bir kənara qoyulmalıdır. Düşünürəm ki, eyni zamanda, Azərbaycan qadını özünün cəmiyyətəki yerini də, rolunu da müəyyənləşdirməlidir. Bu təkcə siyasi fəaliyyətlə məhdudlaşmamalıdır. Bütövlükdə, iş dünyasında, eləcə də digər sahələrdə qadın olduqları üçün onların önə çəkilməsi düzgün deyil. Bu, kişilərə də aiddir. Bu, əslində, həm gender bərabərliyinin pozulmasıdır, həm də ədalətsiz bir rəqabət mühitinin formalaşmasıdır. Ona görə də belə yanaşmaları doğru-düzgün hesab etmirəm. Fikrimcə, Azərbaycan qadınları özləri fərd olaraq siyasi proseslərin önünə keçməlidirlər. Əgər hansısa siyasi partiyanın lideri qadın olacaqsa və bunun üçün onun potensialı varsa, niyə də olmasın. Amma onu zorla, yaxud istiqamətləndirməklə, kənar mexanizmlərdən yararlanmaqla etmək düşünürəm ki, doğru deyil. Cəmiyyətin özü gəlib həmin səviyyəyə çatmalıdır

AMİP təmsilçisi Əli Orucov isə hesab edir ki, qadınların siyasi partiya sədrliyində təmsil olunmamasının səbəbləri əsasən psixoloji, mənəvi və ənənəvi amillərlə bağlıdır: "Biz ölkəmizi nə qədər də Avropa ölkəsi adlandırsaq da, daxildə bir Şərq psixologiyası var. Qadınlarımız özləri də siyasətə, siyasi proseslərə o qədər həvəslə yanaşmırlar. Amma, bununla belə, istər dövlətin idarə edilməsində, istərsə də siyasi partiyalarda qadınlar təmsil olunurlar. Deməzdim ki, ümumiyyətlə, qadınlar siyasi proseslərdən kənardırlar. Amma Azərbaycanda siyasətlə məşğul olmaq böyük təmkin, səbr, əzab-əziyyət tələb edir. Çünki ölkəmizdə siyasi yol hamar deyil. Bu baxımdan, qadınlarımız həyalı və abırlı olduqları üçün, bir qədər bu çətinlikləri çiyinlərinə götürməyə meyl etmirlər. Əgər normal siyasi mühit, normal fəaliyyət imkanı yaradılsaydı, deyim ki, Azərbaycanda qadınlar siyasi fəaliyyətdə daha fəal olardılar, kişilərdən də çox uğurlara imza atardılar. Amma bugünkü acı reallıq ondan ibarətdir ki, Azərbaycanda 55 siyasi partiya var və onun heç birinin sədri qadın deyil. Düşünürəm ki, gec-tez, Azərbaycanda da siyasi lider qadınlar yetişəcək və onlar partiyalara rəhbərlik edəcək, ölkənin siyasi həyatında çox ciddi, təsirli imkanlara malik olacaqlar" -deyə Ə.Orucov vurğuladı.

**O qeyd etdi ki, Skandinaviya, Qərbi Avropa ölkələrində siyasətdə və dövlətin idarə olunmasında qadınların çəkisi çoxdur. Siyasətçi bildirdi ki, Azərbaycan qadınlarının potensialına, imkanlarına güvənir və inanır: "İnanıram ki, qadınlarımız yaxın dövr ərzində aparıcı partiya liderlərinə çevrilə biləcəklər. Buna şübhəm yoxdur".**

*İradə SARIYEVA*

# 55 nəfər doktorant Ali Attestasiya Komissiyasının sədrinə niyə etiraz edir...

**Doktorantlar:** *"...tədqiqatçıları bu görüşündəki çıxışında "savadsız", "az balla universitetə daxil olanlar", "qorxaqlar" deyə aşağılayıb"*

***"Cənab AAK sədri, ilk növbədə, həmin iclasda Prezidentə müraciət edən iddiaçılarla görüşməli idi, görünən odur ki, o, müraciət edənlərin etiraz səsinə məhəl qoymadı"***

**Ali Attestasiya Komissiyasının (AAK) 13 dekabr 2019-cu il tarixində elmi işləri ilkin müzakirədən və seminardan keçmiş dissertant və doktorantlarla bağlı çıxardığı qərar az qala bir aydır gündəmdədir. Məlum olduğu kimi, qərara etiraz edən doktorant və dissertantların redaksiyamıza müraciətlərini, eyni zamanda, onları müdafiə edərək AAK-ı verdiyi qərarı dəyişməyə çağıran tanınmış professorların müsahibələrini dərc etmişik.**

Məsələ gündəmə gələn ilk günlərdən də AAK-la əlaqə saxlamağa cəhd göstərmişik, cəmi bircə dəfə qurumun aparat rəhbəri Gülarə Tağızadə ilə əlaqə yarada bilmişik, digər cəhdlərimizdə isə telefon zənglərimizə cavab verilməyib.

Biz AAK-ın hər zaman cavabını dərc etmək istəmişik, amma, görünür, qurum bunda maraqlı olmayıb. Odur ki, bu dəfə yenidən quruma müraciət etdik və sullarımızı AAK-ın info@aak.gov.az elektron ünvanına göndərdik. Ümid edirik ki, AAK suallarımıza cavab verəcək.

İndi keçək dissertantların və doktorantların redaksiyamıza göndərdikləri yeni məktuba. BDU-nun və digər ali məktəblərin doktorantları adından redaksiyamıza daxil olan məktubda AAK sədrinin bir neçə gün əvvəl BDU-da keçirdiyi görüşdən və bu görüşdə AAK sədri Famil Mustafayevin doktorant və dissertantlara münasibətindən bəhs edilir. Məktubda qeyd edilir ki, AAK sədri mövcud qərara etiraz bildirən gəncləri təhdid edib. "AAK sədri qərara etirazını bildirən və ölkə başçısına müraciət edən doktorant və dissertantları aşağıladı (təhdid etdi). Qeyd edək ki, AAK-ın məlum qərarına görə, fəlsəfə doktoru elmi adı almaq üçün müzakirədən keçmiş dissertasiyalar yenidən ilkin müzakirəyə qaytarılmalı, seminardan keçənlər isə yenidən seminarda iştirak etməlidirlər. AAK-ın Azərbaycan Respublikasının Konstitusiyasına uyğun gəlməyən 13 dekabr 2019-cu il tarixli qərarına etirazını bildirən iddiaçılar onun ləğvinə nail olmaq üçün ölkə başçısı İlham Əliyevə də müraciət ediblər. AAK Rəyasət Heyətinin çıxardığı 13 dekabr 2019-cu il tarixli, 13-R nömrəli qərarı yalnız doktorant və dissertantlar deyil, ölkənin nüfuzlu elm adamları da ədalətsiz qərar adlandırırlar.

Görünür, yanlış qərar çıxardıqlarının fərqində olan AAK rəhbərliyi vəziyyətdən çıxış yolunu ali təhsil müəssisələrinə səfər etməkdə görüb. Qanunsuz qərara etirazdan sonra belə addımların atılmasının nə mənasının olduğu anlaşılmır. AAK sədri rektor, prorektor, elmi katiblərlə görüş keçirib, onlara əsasnaməni "izah" edib, amma heç bir doktorant və dissertantı içəriyə buraxmayıblar. Halbuki, əsasnaməni hər kəsin oxumaq imkanı var və hörmətli F.Mustafayevin onu şərh etməsinə lüzum yoxdur. AAK-da atdığı yanlış addımları, qərarları bu cür səfərlərlə iş görüntüsü yaradıb kompensasiya etməyə çalışan F.Mustafayev ölkə Prezidenti cənab İlham Əliyevə müraciət edən tədqiqatçıları bu görüşündəki çıxışında "savadsız", "az balla universitetə daxil olanlar", "qorxaqlar" deyə aşağılayıb. AAK sədri F.Mustafayev bu epitetləri özünü düşməndən müdafiə edən cəngavər kimi iftixarla söyləyib. O, dolayısı ilə DİM, Təhsil Nazirliyi və digər dövlət qurumlarını savadsız tələbələri qəbul etməkdə suçlayıb. Belə çıxır ki, hamı pisdir, yaxşı olan yeganə qurum rəhbəri səhv qərarlarla insanları narazı salan F.Mustafayevdir. Sırf formal xarakter daşıyan iclasda öz təşəbbüsü ilə, güclə də olsa, sual vermək imkanı əldə edən iştirakçılardan birinin plagiat proqramının göstəricisi ilə bağlı verdiyi "Elmi işdə orijinallıq neçə faiz orijinaldır" sualından da məharətlə yayınan AAK sədri konkret cavab verməkdən yayınıb. Yəni "iş neçə faiz orijinal olmalıdır" sualını dəqiq cavablandıra bilməyib. Bircə onu deyib ki, müzakirə, seminar və müdafiələrin çəkilişini və onun ödənişini müəssisə özü təşkil etməlidir. Gənc tədqiqatçıların ölkə rəhbərinə müraciətinin üzərindən ötəri keçən AAK sədri F.Mustafayev bildirib ki, verilmiş qərarın tətbiqi zamanın tələbidir və onun dəyişdirilməsi üçün heç bir əsas yoxdur. Dissertasiyalar yeni tələblərə uyğun hazırlanmalı və yenidən ilkin müzakirədən və elmi seminardan keçməlidir. Belə çıxır ki, hörmətli AAK sədri dissertantların işinin dolaşığa salınmasını, onların süründürülməsini, aylarla mənəvi-psixoloji işgəncələrə məruz qoyulmasını zamanın tələbi hesab edir. Qəribə məntiqdir. Hətta sədr F.Mustafayev bir qədər də irəli gedərək qanunazidd qərarla razılaşmayan doktorant və dissertantlara "qorxaq", "işlərinə və özlərinə əmin olmayanlar" - deyərək həqarət edib və onları aşağılayıb. AAK sədri deyib: "Hətta mən bunlar haqqında araşdırma aparıb öyrənmişəm ki, onların çoxu universitetlərə aşağı ballarla - 200-300 balla daxil olub, aşağı ballarla və müxtəlif yollarla magistratura və doktoranturaya qəbul edilib alimlik iddiasında olanlardır".




F.Mustafayevin AAK sədrinə yaraşmayan qeyri-etik davranışları birbaşa və ya dolayısı ilə DİM rəhbərliyini, Təhsil Nazirliyini, ali məktəb və akademiya rəhbərlərini savadsızlığa şərait yaratmaqda ittiham etməsi xəbəri bir sıra tələbə, magistr və doktorantları hiddətləndirib. Cənab AAK sədri, ilk növbədə, həmin iclasda Prezidentə müraciət edən iddiaçılarla görüşməli idi, görünən odur ki, o, müraciət edənlərin etiraz səsinə məhəl qoymadı".

İddiaçılar yazırlar ki, AAK rəhbəri AAK-ın Kollegiya iclasının çıxardığı Konstitusiyaya zidd qərara münasibət bildirməyib və neçə-neçə insanın taleyinə biganə qalıb. "Tədqiqatçılar AAK sədrinin belə davranışını qanuna hörmətsizlik və elmi tədqiqatçılara saymazlıq kimi qiymətləndiriblər. Gənc tədqiqatçılardan biri deyir: "Əsasnamə Azərbaycan dilində yazılıb, şükr Allaha, onu biz ziyalılar oxuyub rahat başa düşürük. İzahata nə ehtiyac var idi ki? Əsas mətləb AAK-ın Rəyasət Heyətinin qərarının izah olunması idi ki, sədr öz çıxışında bundan yüz kilometrlərlə aralıda dayandı. Amma iclasda oturanlar da AAK sədrinin niyyətini yaxşı başa düşürdülər. Hər şeyin əvvəlcədən ssenariləşdirildiyi aydın görünür. Çox hörmətli F.Mustafayev deyir ki, gənclər qorxur. Gənclər qorxsa idi, səsləri çıxmazdı, qanunsuz tələbə boyun əyərdilər. Elə bir ciddi qurumun sədrinə belə fikir yaraşarmı? Bu, ancaq özünə bəraətdən başqa bir şey deyil, fikirləri yayındırmaq üçün ortaya atılmış bir ideyadır. Əgər F.Mustafayev çıxardığı qərarı düzgün sayırsa, ilk olaraq, öz üzərində tətbiq etsin. Özünün dediyi kimi, əgər qorxmursa, diplomunu bir daha sübut etmək üçün tədqiqatçılar qarşısında təkrar müdafiə proseduruna girsin, çünki onun müdafiəsi, hətta seminar və ilkin müzakirəsi yeni əsasnaməyə uyğun deyil. AAK sədri deyir ki, "şikayət" edən şəxslər aşağı balla universitetlərə qəbul olunan və oxuyanlardır. Deməli, F.Mustafayev özü azmış kimi, orta məktəblərdəki təhsilin səviyyəsinə, DİM sədri Məleykə Abbaszadənin fəaliyyətinə, ali təhsil müəssisələrinin rəhbərlərinə ironiya ilə yanaşıb onları səriştəsizlikdə ittiham edir. Görəsən, cənab F.Mustafayev rəhbərlik etdiyi qurumda saxta yollarla müdafiə edib alimlik dərəcəsi alan nə qədər ekspertin olduğunu bilirmi? Onu da bilirmi ki, lap yaxın zamanlarda nə qədər aşağı səviyyəli, elmi kontenti olmayan dissertasiyalara məhz F.Mustafayevin imzası ilə diplomlar verilib? Faktlar tərs şeydir, hörmətli Famil müəllim! "Savadsızlar", "qorxaqlar" deyib aşağıladığınız bizlərin işi "savadlı", "qoçaq" deyib rəy yazdırdığınız, dərəcə verib tərif etdiklərinizin işindən qat-qat yaxşıdır. Bunu ki, siz çox yaxşı bilirsiniz...

Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddəsini pozan qərara haqq qazandırmağa çalışan F.Mustafayev, təəssüf ki, çıxış yolunu tələbə, magistr və dissertantları aşağılamaqda görür. Biz hamılıqla inanırıq ki, AAK sədri F.Mustafayevin bu hərəkətləri haqqında ölkə başçısına etdiyimiz müraciət öz nəticəsini verəcək və hər şey qanuni məcraya düşəcək" - deyə doktorantlar qeyd edirlər.

Yeri gəlmişkən, doktorantlara "siz öz savadınıza, biliyinizə güvənirsinizsə və elmi işinizi özünüz yazmısınızsa, bəs onda elmi işinizin təkrarən ilkin müzakirəyə getməsinə, seminardan keçməsinə niyə etiraz edirsiniz" sualına onların cavabı belə olur. "Biz hamımız elmi işimizi özümüz yazmışıq və elmi işimizi istənilən səviyyədə müdafiə etməyə hazırıq. Burada söhbət başqa məsələdən gedir. Biz elmi işimizi yenidən təkrar müzakirəyə versək, onun üçün bizə çoxlu sənəd yığmaq tələb olunur. O sənədi yığmaq özü böyük vaxt aparan işdir. Sənədi yığmaq, onları imzalatmaq böyük problemdir. Bir sənədi imzalatmaq üçün universitetlərin müdafiə şuralarının rəhbərlərinin arxasınca günlərlə, həftələrlə, bəzən aylarla sürünürük. Adi bir imza üçün şura sədrlərini axtarırıq. Məsələ burasındadır ki, bəzi dissertasiya şuralarının üzvləri və onların köməkçiləri müəyyən şirinlik müqabilində sənədlərə qol çəkdirirlər. Deyirlər ki, filankəs müəllim yerində deyil, sen mənə hörmət et, tez bir zamanda sənin işinə qol çəkdirəcəyəm. Yəni artıq dissertasiya şuralarını rüşvət yuvasına çevirən adamlar da var. Təbii, bunlardan dissertasiya şuralarının rəhbərlərinin xəbəri yoxdur, köməkçiləri doktorant və dissertantlardan bu yolla rüşvət tələb edirlər" - deyə doktorantlar bildirirlər.

**AAK-ın qərarından narazı doktorant və dissertantların yeni məktubunu dərc etdik, ümid edirik ki, tez bir zamanda AAK rəhbərliyi də suallarımıza cavab verəcək.**

***İradə SARIYEVA***

# "Sədərək" bazarı - dəhşətli yanğınlar, antisanitariya, qanunsuzluq, özbaşınalıq, hər cür təxribatlar, təhlükələr mənbəyi...

**Fevralın 18-də səhəri yenidən acı xəbərlə açdıq. Məlumat yayıldı ki, Bakıda yenə bazar yanır. Kimlərinsə külli miqdarda pul qazanması və işini qanunun tələblərinə uyğun qurmaması səbəbindən Azərbaycan vətəndaşı mütəmadi olaraq belə xəbərlərin "tüstüsü" ilə "zəhərlənmək" məcburiyyətində qalır.**

Son zamanlar daha çox yanan ticarət mərkəzləridir. Bu dəfə yanan "Sədərək" adlı bazar oldu. Məlum oldu ki, Bakının ən böyük əşya bazarı "Sədərək"də baş verən yanğın zamanı 10 nəfər xəsarət alıb. Onlardan doqquzuna yerindəcə tibbi yardım göstərilib, bir nəfər xəstəxanaya aparılıb.

Ticarət mərkəzində təxminən min kvadratmetr ərazilik 60 mağaza yanıb.Yanğın fevralın 18-də səhərin erkən saatlarında baş verib. Alovu yalnız iki saat sonra ram etmək mümkün olub.

Yanğının səbəbi hələlik bəlli deyil, amma ticarətçilər hesab edirlər ki, səbəb qısa qapanma ola bilər.

Mərkəzin mətbuat xidmətinin rəhbəri Mikayıl Qədimov deyib ki, "Sədərək" ticarət mərkəzində baş verən yanğın nəticəsində zərərçəkən sahibkarlara kompensasiya ödəniləcək: "Bu ilin yanvar ayından ticarət mərkəzindəki bütün mağazaların sığortalanmasına başlanıb. Artıq bazardakı əksər mağaza sığortalanıb. Yəqin ki, yanğın baş verən ərazidəki mağazalar da sığortalıdır. Hazırda sığorta şirkəti hadisə yerindədir, dəymiş ziyan müəyyənləşdirilir. Sığorta ilə yanaşı, ticarət mərkəzinin rəhbərliyi tərəfindən də sahibkarlara kompensasiya ödəniləcək. Mağazaların icarə haqlarında və digər xərclərdə sahibkarlara yardım ediləcək".

Bakının kənarında yerləşən "Sədərək" bazarında mütəmadi olaraq yanğın baş verir. Bazarda ən son böyük yanğın 2019-cu ilin avqustunda olub. Bazarın ümumi ərazisi 100 hektardır. Günügündən də icarə pullarından daha artıq vəsit əldə edib, varlanmaq üçün bazar rəhbərliyi ərazini genişləndirir. Dəfələrlə həmin bazarda olmuşuq. Kustar üsullarla tikilən bazarda təhlükəsizlik, yanğından mühafizə amilləri, demək olar ki, nəzərə alınmayıb. Bazara bir neçə yerdən giriş var. Xüsusilə də şənbə və bazar günləri bazarda maşınların parklanmasında pərakəndəlik olur. Elə olur ki, bazara alış-verişə gələn müştərilər saatlarla bazarı fırlanırlar ki, avtomobillərini park edə bilsinlər. Aydındır ki, belə dağınıq avtomobil parklanmasının olduğu yerdə baş verə biləcək yanğın hadisəsi zamanı yanğınsöndürənlərin hərəkəti mümkün deyil. Bazarda antisanitariya hökm sürür. Yanğından təhlükəsizlik üçün heç bir maarifləndirici plakata və digər təbliğat növünə rast gələ bilmirsən. Vergi ödənişləri ilə bağlı da vəziyyət şəffaf deyil. Dəfələrlə oranın satıcıları heç bir əsas olmadan bazardakı icarə haqlarının qaldırılmasına dair etiraz aksiyası keçiriblər. Xüsusilə də "Xalça bazarı" deyilən yerdə vəziyyət daha acınacaqlıdır. Orada sahibkarlar ikiqat vergi ödəyirlər, dükanlar üçün bazara aylıq haqq və sahibkar pulu. Yəni elə şərait yaradılıb ki, icarədar dükanı birbaşa bazar rəhbərliyindən müqavilə əsasında icarəyə götürə bilmir. Bazar belə müqaviləni özünə yaxın olan və əksəriyyəti TM rəhbərliyinin yaxın qohumları sayılan şəxslərlə bağlayır. Sahibkarlara da mağazanı həmin adamlar icarəyə verir. Həmin ərazidə alver yaxşı getdiyi üçün belə mexanizmi tətbiq ediblər. Ötən il "Sədərək" bazarında alverlə məşğul olan şəxslərlə rəhbərlik arasında bir neçə dəfə qarşıdurma yaranıb. Səbəb yenə də rəhbərliyin icarə haqlarını qaldırmaq istəməsidir. Bildirilir ki, bazar rəhbərliyi ilk belə addımı paltar satışı ilə məşğul olan 5 və 7-ci sıralarda tətbiq etmək istəyib. İcarənin hər kvadratmetrinə görə ödənişin az qala iki dəfə qaldırılması və yeni qiymətin hər kvadrat üçün 19-20 manat müəyyən edilməsi sahibkarların etirazına səbəb olub. Həmin sıradakı sahibkarlar etiraz əlaməti olaraq mağazalarını bağlayıblar. Sonra bazar rəhbərliyilə sırada alver edən sahibkarlar arasında kompromis variant tapılıb və qiymət artımının dərəcəsi bir qədər aşağı salınıb.






Bazarın təhlükəsizliyinin təminatında da ciddi problemlərin olduğu nəzərə çarpır. Dünyanın bir çox ölkəsindən ora mal gətirilir. Belə strateji yerdə təhlükəsizliyə daha çox bazarın özünün mühafizə sistemi nəzarət edir ki, onların da peşəkarlıq səviyyəsi olduqca aşağıdır.

**Bildirilir ki, bütün bu qanunsuzluqlara etiraz edən istənilən şəxslə bağlı bazar rəhbərliyi sərt tədbir görür, onların əlindən dükanları alınır və bir daha bazara buraxılmır. Bir sözlə, arada bir baş verən yanğınlarla gündəmə gələn "Sədərək" bazarı yalnız tüstü sarıdan əziyyət çəkmir. Burada təhlükəsizlik, antisanitariya, vergi ödənişləri sarıdan da ciddi problem yaşanır. Bazarın ümumi göstəriciləri isə müasir zamanın tələblərinə cavab vermir. Kiminsə pul qazanmağına görə cəmiyyət niyə əziyyət çəkməlidir? Əlaqədar qurumların bu bazarla bağlı bir əncam çəkməsinin zamanı çoxdan yetişib...**

*Məhəmmədəli QƏRİBLİ*

**Xərclərə qənaət etməyin ən yaxşı yolu gözlənilməyən əlavə risqlərdən sığortalamaqdır. Ziyandəymə risqinin daha çox olduğu avtomobil sığortası bu mənada birinci yerdə gəlir. Nəzərə alsaq ki, ölkəmizdə əhali arasında da bu sığorta növü daha çox tanınır, o zaman çoxlarını maraqlandırır ki, Azərbaycanda avtomobili sığortalamaq neçəyə başa gəlir?**

# Sığorta şirkətləri 2008-ci ildən "qoca" avtomobilləri sığortalamaqdan imtina edir - biznes marağını insan haqlarından uca tutanlar...

## *Fuad İbrahimov: "İli köhnə olan avtomobillərin sığortalanmaması avtomobil sahiblərinin hüquqlarının pozulması deməkdir"*



Məlumata görə, avtomobilin istehsal tarixindən, bazar qiymətindən, azadolma məbləğindən, sürücülük təcrübəsindən və bir sıra digər amillərdən asılı olaraq, sığorta haqqı arta və ya azala bilir. Ona görə də bazar qiyməti 11 min manat olan avtomobil misalı üzərində qiymətlər müəyyən edilib.

Bu arada məlum olub ki, sığorta bazarında bir çox şirkət istehsal ili 2008-ci ildən aşağı olan avtomobilləri sığortalamır. Əksər şirkətlər istehsal tarixi 2008-ci ildən yuxarı olan avtomobilləri sığortalamağa razılıq verirlər. Ənənəvi olaraq könüllü sığorta müştərilərinin qıtlığından şikayətlənən sığorta şirkətlərinin özü bəzi müştərilərdən könüllü imtina edirlər.

O da məlum olub ki, sığortaçılar hətta ucuz avtomobilləri də sığortalamaq istəmirlər. Hər vasitə ilə bundan yayınırlar. Ölkədə elə avtomobillər var ki, istehsal tarixi 2008-ci ildən aşağı olsa da, texniki göstəriciləri üstün səviyyədədir. Belə olan halda, həmin avtomobillərin sığortalanmaması nə dərəcədə doğrudur? Ümumiyyətlə, sığorta şirkətlərinin istehsal tarixi 2008-ci ildən aşağı olan avtomobilləri sığortalamaması düzgündürmü?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, sığorta şirkətlərinin avtomobil sığortasına bu çür yanaşması düzgün deyil: "Sığorta qanunvericiliyində bununla bağlı hər hansı məhdudiyyət yoxdur. Ancaq nəzərə almaq lazımdır ki, icbari sığorta buraxılış ilindən asılı olmayaraq, bütün avtonəqliyyat vasitələrinə şamil olunur. Ancaq avtomobillərin kasko sığortasına münasibət fərqlidir. Sığorta şirkətləri özəl olduqları üçün, bu məsələdə fərqli yanaşma sərgiləyirlər. Çünki bu sığorta növü icbari xarakterli olmadığından, bütün avtomobillərə şamil etmək olmur.

*"Fikirləşirlər ki, belə avtomobillərlə bağlı sığorta halı baş versə, xərcə çox düşəcəklər"*

Əslində, ilindən asılı olmayaraq, bütün avtomobillər sığortalanmalıdır. Bu zaman sığortanın həcmi avtomobilin istehsal ilindən asılı olaraq dəyişə bilər. Yoxsa, ili 2008-dən aşağı olan bütün avtomobillərin sığortalanmaması doğru deyil. Hesab edirəm ki, bütün avtomobillər hər hansı bir miqdarda sığortalanmalıdır.

Çünki ili köhnə olan avtomobillərin sığortalanmaması avtomobil sahiblərinin hüquqlarının pozulması deməkdir. Sığortaçılar bu yolla öz risqlərini azaltmaq istəyirlər. Fikirləşirlər ki, belə avtomobillərlə bağlı sığorta halı baş versə, xərcə çox düşəcəklər. Ona görə də bundan yayınırlar. Hesab edirəm ki, bu sahəyə müəyyən dövlət nəzarəti artırılmalıdır. Çünki sağlam cəmiyyətdə sığorta şirkətləri belə bir problem yaratmamalıdırlar. O üzdən, bu sahəyə müdaxilə olmalıdır".

***Vidadi ORDAHALLI***



## Bakı Biznes Universitetində yeni layihə...

**Bakı Biznes Universiteti və "Easymark" şirkətinin təşkilatçılığı ilə "Marketingguide in BBU" layihəsi həyata keçirilib. Tədbiri giriş sözü ilə Universitetin rektoru, iqtisad elmləri doktoru, professor İbad Abbasov açaraq, tələbələrə tədbirdə fəal iştirak etməyi tövsiyə edib.**

Layihə çərçivəsində "ABAD", "Azərsun", "Dünyagöz", "Easymark", "Stimul Education" və digər nüfuzlu şirkətlərin sərgisi keçirilib. Dövlət və özəl sektor nümayəndələrinin iştirak etdiyi tədbirin əsas məqsədi marketinqin son trendlərinin müzakirəsi, beynəlxalq təcrübənin, strateji həmlələrin tətbiqi, markalaşmada və xarici bazarlara addımlarda əsas məqamlara diqqət yönəltməkdir.

Tədbirin sonunda fəal tələbələr setifikat və digər həvəsləndirici hədiyyələrlə mükafatlandırılıb. "Dünyagöz" klinikası tərəfindən tələbələrə ödənişsiz müayinə və əməliyyat endirim kuponları və digər şirkətlərin hədiyyələri təqdim edilib.

# Azərbaycanda Zərgərlər və Qızıl Emalçıları assosiasiyaları yaradılacaq

**Azərbaycanda Zərgərlər Assosiasiyasının yaradılması planlaşdırılır. "Trend"in məlumatına görə, bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycanda zərgərlik bazarının inkişaf perspektivləri: problemlər və imkanlar" adlı konfransda deyib.**



Nazir bildirib ki, ölkədə zərgərlik işinin dəstəklənməsinin təmin olunması üçün Zərgərlik Assosiasiyasının yaradılması zəruridir.

Onun sözlərinə görə, ölkənin sosial-iqtisadi inkişafı çərçivəsində İqtisadiyyat Nazirliyi qarşısında dayanan əsas tapşırıqlardan biri kiçik və orta sahibkarlıq sahələrində orta və uzun müddətdə rəqabətin təmin olunmasıdır: "Bu, qiymətli metalların hasilatında və xüsusilə də zərgərlik biznesinin inkişafı kimi tapşırıqlarda əks olunur".

Azərbaycanda yaxın zamanlarda Qızıl Emalçıları Assosiasiyası da yaradılacaq. Bunu isə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov Azərbaycanda "Zərgərlik bazarının inkişaf perspektivləri: problemlər və imkanlar" adlı konfransda deyib.

O bildirib ki, bununla bağlı Agentlik Ədliyyə Nazirliyinə müraciət edib və nəticədə assosiasiya iki həftə ərzində qeydiyyata alınacaq

O.Məmmədov əlavə edib ki, İqtisadiyyat Nazirliyi tərəfindən qızıl emalı sahəsində fəaliyyət göstərəcək işçi qrupunun yaradılması barədə qərar qəbul edilib: "Bu qrupun tərkibində Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, "AzerGold" QSC-nin, eləcə də yeni assosiasiyanın nümayəndələri təmsil olunur".

# Naftalanın yeni avtovağzalı tam qanunsuz imiş...

**Naftalanda fəaliyyətə başlayan avtovağzal stansiyası tam qanunsuzdur və heç bir tələbə cavab vermir.**

Bunu "Trend"ə açıqlamasında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) mətbuat xidmətinin rəhbəri Nuridə Allahyarova bildirib.

Onun sözlərinə görə, Naftalanda hotel tikərək birinci mərtəbəsində avtovağzal açan sahibkara DANX tərəfindən xəbərdarlıq olunub: "Avtovağzallar və avtostansiyalar haqqında əsasnamə mövcuddur və həmin əsasnamədə kriteriyalar var. Pasportun əldə olunması üçün isə sahibkarlar bu kriteriyalara əməl etməlidirlər. Onlar nədən ibarətdir: 75 və daha çox oturacağı olan gözləmə zalı, ana və uşaq otağı, sərnişinlərin avtobusa minib-düşməsi üçün perronlar, şəhərlərarası işləyən avtobuslar üçün geniş meydança, taksi xidməti göstərən şəxslər üçün avtovağzal ətrafı ərazinin mövcudluğu, inzibati bina, tibb məntəqəsi, sürücülərin istirahət otağı və nəhayət, polis məntəqəsi. Bunlar həmısı vacib şərtlərdir".

N.Allahyarova qeyd edib ki, sahibkar bu kriteriyaların heç birinə əməl etməyib: "Sahibkar hoteli tikib və birinci mərtəbəsini avtovağzal kimi elan etdikdən sonra, əməkdaşlarımız əraziyə baxış keçiriblər. Baxış zamanı məlum olub ki, pasportun alınması üçün sahibkar heç bir iş görməyib və həmin obyektdə avtovağzal üçün lazım olan meyarların heç biri yoxdur. Bu səbəbdən Naftalanda həmin obyektin avtovağzal kimi fəaliyyət göstərilməsinə icazə verilməyib".

DANX-ın sözçüsü sonda sərnişinlərə də müraicət edərək bildirib ki, belə obyektlərə daxil olan nəqliyyat vasitələri qanuni daşımalar üzrə avtobuslar olmur. İstənilən avtobus əraziyə daxil olması üçün icazəni məhz sahibkardan aldığına görə, qiymətlərdə də hər hansısa dəyişiklik ola bilər.

Xatırladaq ki, DANX-dan ötən həftə Trend-ə verilən məlumata görə, ölkədəki 56 avtovağzal və avtostansiya kompleksindən 40-ı pasportla təmin olunub. Digər obyektlərin də pasport alması ilə bağlı danışıqlar aparılır.

**Ölkəmizdə tarix-mədəniyyət abidələrinin, muzeylərin, türbələrin, qalaların, eləcə də digər bu qəbildən olan maddi-mədəni örnəklərin bərpa, konservasiya və pasportlaşmasında dövlət ortaya ciddi iradə qoyub. Bilirik ki, Azərbaycanda bərpa edilən abidələrin böyük bir qismi Dövlət Proqramı və investisiya proqramı çərçivəsində bərpa edilir, konservasiyaya cəlb olunur.**

# Tarix-mədəniyyət abidələrinin bərpa tenderlərinə böyük şübhələr var - niyə həmişə eyni şirkətlər qalib "çıxır"?

***Rizvan Qarabağlı:*** *”Heç zaman tenderlərin nəticəsi məni təmin etmir”*



*”Tenderdə işi götürüb tamamilə bərpadan xəbəri olmayan yerli tikinti şirkətinə verdilər”*

Dövlət büdcəsindən ayrılan vəsait hesabına həyata keçirilən layihələr əsasında aparılan bərpa-konservasiya işləri özlüyündə müsbət olsa da, dövlətin bu sahəyə xüsusi diqqət göstərməsi, maliyə ayırması təqdir edilsə də, bərpanı həyata keçirən şirkətlərin gördüyü işlər mütəxəssislər tərəfindən ciddi narazılıqla qarşılanır. Mütəxəssislərin əsas iradları ondan ibarətdir ki, həyata keçirilən bərpa işləri yarıtmazdır, tarixi abidələrin bərpası ilə bağlı dünyada qəbul edilmiş standartlara qətiyyən cavab vermir.

Doğrudur, ölkə ərazisində bərpa ediləcək abidələrlə bağlı tender ?lan edilir və tenderdə qalib gələn şirkət abidələri bərpa edir. Mütəxəssislər qeyd edirlər ki, sırf bərpa işi ilə məşğul olan şirkətlər tenderə yaxın buraxılmır, tenderdə əsasən müəyyən tikinti şirkətləri iştirak edir və hər dəfə də qalib həmin şirkətlər olur.

Tarixi-mədəniyyət abidələrinin bərpası ilə bağlı həyata keçirilən tenderin şəffaf keçirilmədiyini deyən ekspertlərin sözlərinə görə, bərpa işinə qətiyyən aidiyyəti olmayan şirkətlər abidələri "Avroremont" edirlər. Onlar hesab edirlər ki, bu şirkətlər bərpa işində sementdən istifadə etməklə yanaşı, həm də abidənin tikintisində istifadə edilmiş materiallara qətiyyən uyğun gəlməyən materiallarla "bərpa" işini görürlər. Bu gün Azərbaycanda bərpa edilən tarixi abidələrin böyük əksəriyyətində bərpa üçün lazım olan heç bir maddədən istifadə edilmir, buna əsas kimi şirkətlər həmin maddələrin baha olduğunu irəli çəkirlər. Halbuki, bərpa işinə dövlət kifayət qədər vəsait ayırır. Amma şirkətlər bu vəsaitdən bərba üçün istifadə etmək istəmirlər. Bu da, sözsüz ki, mütəxəssislərin diqqətindən yayınmır.

İddialara görə, keçmiş Mədəniyyət və Turizm Nazirliyi də, sonra bu qurumun əsasında yaradılan Mədəniyyət Nazirliyi də, Dövlət Turizm Agentliyi də uzun illərdir sifarişi eyni şirkətlətlərə verir, tenderin keçirilməsi isə formal xarakter daşıyır.

Məsələ ilə bağlı sorğumuza Mədəni İrsin Qorunması və Bərpası üzrə Dövlət Xidmətindən məlumat verilmədi, qurumdan həftənin birinci günü iddialara münasibət bildirəcəklərini qeyd etdilər. Araşdırmamız zamanı məlum oldu ki, İçəri şəhərdə bir sıra abidələrin bərpa işini "Atelier Erich Pummer GmbH" şirkəti həyata keçirib. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən mətbuata verilən məlumata görə, son illər ərzində Qız qalası, Şirvanşahlar Saray Kompleksi, Məhəmməd məscidi, Dördbucaqlı qala, Bəylər məscidi, Qala divarları və s. kimi dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələrində uğurla tamamlanmış çoxsaylı bərpa və konservasiya işlərinin əksəriyyəti Avstriyanın tanınmış "Atelier Erich Pummer GmbH" şirkəti tərəfindən həyata keçirilir. 2019-cu ilin ortasında başlayan layihəyə əsasən Qoşa Qala qapıları həm İçəri Şəhər (daxili), həmçinin Bayır şəhər (fasad) tərəfindən bərpa-konservasiya edilib. Dövlət Turizm Agentliyinin isə, əsasən, "NKT-Bərpa" MMC ilə əməkdaşlıq etdiyi bildirilir. Yəni bu quruma aid abidələrin konservasiyası və bərpası ilə bağlı elan edilmiş tenderdə əsasən bu şirkət qalib gəlir.

Qeyd edək ki, Lahıcda 5 memarlıq abidəsinin bərpasını da sözügedən şirkət həyata keçirəcək və bununçün sənədləşməyə 162 min manat xərclənəcək. Məlumatlara görə, Dövlət Turizm Agentliyinin "Lahıc" Dövlət Tarix Mədəniyyət Qoruğundakı 5 memarlıq abidəsinin bərpası üçün layihə-smeta sənədlərinin hazırlanmasına dair elan etdiyi açıq tenderin nəticəsi məlum olub. Qalib şirkətə 161 896 manat ödəniləcək. Bundan başqa, Mədəniyyət Nazirliyinin ?lan etdiyi tenderlərdən birində də"NKT-Bərpa" MMC qalib gəlib. Belə ki, Gəncədə Tatlar məscidinin bərpası üçün smeta sənədlərinin hazırlanmasına 49 min manata yaxın vəsait yönəldib. Saytında dərc olunan materiallara əsasən, Mədəniyyət Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti "NKT-Bərpa" MMC ilə bu işlərin ixrasına dair müqavilə imzalayıb. Müqavilənin dəyəri 48,911 min manat təşkil edir.

Memarlar İttifaqının üzvü, memarlıq üzrə fəlsəfə doktoru, tanınmış memar Rizvan Qarabağlı baki-xeber.com-az tarix-mədəniyyət abidələrinin bərpası ilə bağlı ?lan edilən tenderlərin nəticələrindən narazı qaldığını bildirdi. R.Qarabağlı qeyd etdi ki, çox zaman bu tenderlər formal xarakter daşıyır və əsasən burada bərpaçı şirkətlər yox, tikinti şirkətləri "qalib" gəlir. "Mənim isə bir mütəxəssis kimi buna münasibətim çox pisdir. Heç zaman tenderlərin nəticəsi məni təmin etmir. Mən bir dəfə tender komissiyalarından birinin üzvü olmuşam, orada da həmişə narazılığımı bildirirdim. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix Muzeyinin bərpası ilə bağlı komissiya yaradılmışdı, mən də onun üzvlərindən biri idim. Tenderdə iştirak edən "bərpaçı qruplar" vardı. Onlar əslində heç bərpaçı da deyildilər, tikinti ilə məşğul olanlar idilər. Bu şirkətlər kanal tikirdi, ev, bina və s. tikirdilər. Mən həmin vaxt komissiyanın toplantısında mübahisə edirdim, onlarla mübarizə aparırdım ki, bu cür məsuliyyətli işin görülməsini peşəkar bərpaçılara həvalə etmək lazımdır. Fərqi yoxdur, bərpaçı şirkət istər yerli, istərsə də xarici olsun, fərq etmir, əsas odur ki, bu sahədə peşəkar olsunlar. Türkiyənin məşhur "Topqapı" Sarayını bərpa edən şirkətin kataloquna baxdım və nümayəndələri ilə də söhbət etdim, gördüm ki, Tarix Muzeyini bu şirkətdən yaxşı heç bir şirkət bərpa edə bilməz. O vaxt "Topqapı" Sarayını bərpa edən şirkət də tenderdə iştirak edirdi, mən həqiqətən də bərpaçı şirkət olan şirkətə səs verdim, amma mənim səsim keçmədi. Tarix Muzeyinin bərpasını yerli tikinti şirkətlərindən birinə verdilər. Hətta orada mənə irad tutdular ki, yerli şirkətləri qoyub niyə xaricə müraciət etməliyik. Dedim yerli şirkətlərdən bərpa işi ilə məşğul olanları var, amma onlar tenderdə iştirak etmirdilər. Həmin yerli bərpa şirkəti Bərdədə Nüşabə türbəsini, eləcə də Bakıda, Abşeronda, Qarabağda bir neçə tarixi abidəni çox yüksək səviyyədə bərpa edib. Burada çox gözəl bərpaçılar var. Ədalət Məmmədov kimi bərpaçılarımız bu işlərə cəlb edilməlidir. O, həmçinin Göyhərağa məscidində, eləcə də Şuşada bir neçə binanın bərpası ilə məşğul olmuşdu. O çox gözəl bərpaçıdır".

Tenderlərdə ədalətsizliyə yol verildiyini deyən R.Qarabağlının sözlərinə görə, tikinti şirkətlərinə bərpa işinin tapşırılması, onların bu sahədə olan tenderdə qalib edilməsi doğru deyil. O hesab edir ki, naşı bərpaçıların gördüyü yarıtmaz işlərdən biri Tarix Muzeyidir. "Tenderdə işi götürüb tamamilə bərpadan xəbəri olmayan yerli tikinti şirkətinə verdilər. Bu şirkət də Tarix Muzeyini çox yarıtmaz vəziyyətdə bərpa etdi. Bu muzey Hacı Zeynalabdin Tağıyevin evində yerləşir. Hətta içəridə interyerdə "Bismillahi rəhmani rəhim" sözü yazılmış lövhənin ortasını deşib ora çılçıraq asmışdılar. Mən də bunu onlara irad tutdum. Dedim ki, gördünüz, vaxtında sizə dedim ki, bu işi peşəkar bərpaçı şirkətinə verin, vermədiniz, buda nəticə. Cavab verdilər ki, Sovet dövründə də həmin sözün ortasında çılçıraq vardı. Sovet hökuməti islam dininə qarşı olan bir siyasi quruluş idi. Bunlar indi Tağıyevin dövrünə aid olan bir yazının ortasını deşib ora çılçıraq asıblar. Bu yolverilməzdir. Çox təkid etdim ki, tikinti şirkətlərinə bərpa işlərini vermək olmaz. Onda mən tələb etdim ki, tikinti şirkətinin rəhbərlərini çağırın üzbəüz söhbət edək, görək heç onların bu binanın memarlığından, konstruksiyasından xəbəri varmı. Şirkət müdirləri gəldilər, mən onlara dedim ki, bu Tağıyevin evidir, necə bərpa edəcəksiniz, gəlin fasaddan başlayaq, fasadı necə işləyəcəksiniz? Dedilər ki, Rizvan müəllim, nə var ki orda, divarı qaşıyıb yerə tökəcəyik və yeni üzlük plitələrlə üzləyəcəksiniz. Komissiya sədrinə "baxın, hələ bunlar bilmir ki, fasada vurulan üzlük plitəsi deyil, yükdaşıyan divardı, divar konstruksiyasıdı. Onu söksən tamamilə bina dağılar" dedim. Tarix-mədəniyyət abidələrinin bərpası, konstruksiyası çox ciddi məsələlərdir. Tarix mədəniyyət abidələrinin bərpasına hər şirkəti buraxmaq olmaz. Çünki bu o qədər həssas məsələdir ki, atalar sözündə deyildiyi kimi, "qaş düzəltdiyin yerdə vurub gözü tökərsən". Tarix-mədəniyyət abidələrinin bərpası zamanı çox diqqətli və məsuliyyətli olmaq lazımdır. Bu elə-belə məsələ deyil".

***İradə SARIYEVA***

№ 30 (4161) ■ Qiymәti: **40 qәpik**

# BAKI XƏBƏR

www.baki-xeber.com

19 FEVRAL 2020-ci il

## Çində koronavirusa qarşı robotlarla mübarizə başladı - Qapı-qapı gəzib diaqnoz qoyurlar



**Çində koronavirusa görə ölənlərin sayı hər keçən gün biraz daha da artır. Çin Səhiyyə Təşkilatından isə bildirirlər ki, virusun qarşısını almaq üçün ən yaxşı üsul onun erkən aşkarlanmasıdır.**

"Medicina.az" bildirir ki, bu səbəbdən Çində qapı-qapı gəzib insanların virusa yoluxmasını aşkar edirlər. Son günlər hökumət işə robotları da cəlb edib. Belə ki, 5 G texnoloji robotlar işə başlayıb. Onlar evləri gəzərək insanların istiliyini ölçür, virus diaqnozunu qoya bilir. Robotlara yerləşdirilən termal kameralar sayəsində 5 metr məsafədən insan istiliyini ölçə bilirlər. Bundan əlavə, eyni anda 10 nəfərin temperaturunu eyni vaxtda ölçürlər. Daha sonra, nəticələri 5G texnologiyası sayəsində mərkəzə ötürürlər.

Əgər robot yüksək istilikli şəxs aşkar edibsə, dərhal mərkəzdən gəlib həmin insan olan yeri karantinə alırlar.Beləliklə, digər insanlara virusun yoluxmasının qarşısı alınır.

## Meksika sahillərində qeyri-adi balıq göründü



**Meksikada dəniz sahilində gözləri və üzgəci olmayan balıq insanları təşvişə salıb.**

"Milli.Az" xəbər verir ki, Meksikada turistlərin daha çox ziyarət etdiyi Destiladeras sahilində gözləri və üzgəci olmayan balıq peyda olub. Qəribə canlını görən insanlar onun suitinə və delfinə bənzətsələr də, lakin ikisi də deyilmiş. Balığın kəskin iti dişləri və fərqli quyruğu böyük marağa səbəb olub. Balıqçılar iddia edirlər ki, bu canlı növü dənizin dibində yaşayır və hansısa səbəbdən sahilə çıxıb. Balığın növünü tapmaq üçün mütəxəssislər araşdırma işləri aparırlar.

## Elan

Şəki rayonu, Baltalı kənd sakini Cəfərov Zəkəriyyə Şakir oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

---

Quliyeva Sevda İbrahim qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Çöl Şüvəlan 172 saylı bağ sahəsinin ərazisində yerləşən 0.1135 ha torpaq sahəsinə dair reyestr № 003013008041 olan, qeydiyyat № 1114090283 olan torpağın çıxarışının Namazov Elçin Fəxrəddin oğluna verilmiş etibarnaməsi itdiyi üçün etibarsız sayılır.

---

Əzimova Solmazxanım Mirqədir qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Balayeva Nüşabə Balahüseyn qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, bağ massivi 600 nömrəli bağın № 20723 müqaviləsi itdiyi üçün etibarsız sayılır.

---

İsgəndərova Zöhrə Məhəmməd qızının adına, Suraxanı qəsəbəsi, A.Rzayev küçəsi, ev 21-in qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

---

Şəki rayonu, Baş Göynük kənd sakini İbrahimov Məmmədiyyə Şirin oğlunun adına verilmiş A -054907 saylı torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

## "Azercell"dən Azərbaycan kinoindustriyasının inkişafına dəstək

*"Azercell Telekom" Beşinci Buktreyler Festivalının rəqəmsal tərəfdaşı qismində çıxış edir*

**"Azercell Telekom" MMC ənənəvi olaraq 23 aprel - Beynəlxalq Kitab Günü ərəfəsində mütaliə mədəniyyətinin təbliği və kinemotoqrafiya sahəsinin inkişafı məqsədilə təşkil edilən Buktreyler Festivalının əsas tərəfdaşıdır.**

Daim istedadlı və yaradıcı gənclərin dəstəyinə yönələn layihələrin və sosial təşəbbüslərin fəal iştirakçısı olan "Azercell", festival çərçivəsində xüsusi olaraq "Ən Yaxşı Mobil Buktreyler" nominasiyasını da elan edir. Belə ki, mobil telefon vasitəsilə yerli müəlliflərin istənilən əsərinə çəkilən buktreylər şirkətin xüsusi münsiflər heyəti tərəfindən dəyərləndiriləcək və qalib "Azercell"dən 1000 AZN dəyərində pul mükafatı qazanacaq.

Qeyd edək ki, Buktreyler Festivalı artıq 4 ildir ki, film sənayesində yeni simaların aşkar edilməsinə böyük töhfə verir. Festival kinoaktyor, prodüser Ruslan Sabirlinin təsisçiliyi altında, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Beynəlxalq Muğam Mərkəzinin təşkilati dəstəyilə keçirilir. "Kitabı tanıdın, kitabla tanının" sloqanı ilə keçirilən bu festival milli-mədəni irsimizin qorunması, habelə Azərbaycan ədəbiyyatının beynəlxalq müstəvidə tanıdılması üçün əvəzolunmaz bir layihədir. Yaşından asılı olmayaraq, hər kəs festivalın rəsmi internet səhifəsində (www.booktrailer.az) qeydiyyatdan keçərək, yarışmada iştirak edə bilər. Xatırladaq ki, Beşinci Buktreyler Festivalının 1-ci yer qalibi 1000 AZN, 2-ci yer qalibləri 800 AZN və 3-cü yer qalibləri 500 AZN pul mükafatı ilə təltif olunacaqlar. Xatırladaq ki, festival üzrə müraciətlərin qəbulu fevral ayının 2-dən başlayıb. Buktreylerlərin son qəbul tarixi 1 aprel 2020-ci ildir.

Festival barədə ətraflı məlumatı www.booktrailer.az internet səhifəsindən və ya festivalın sosial şəbəkələrdəki rəsmi səhifələrindən əldə etmək mümkündür:

**"Instagram":**
https://www.instagram.com/BooktrailerFest
**"Facebook":**
https://www.facebook.com/BooktrailerFest
**"YouTube":** https://www.youtube.com/BooktrailerFest

Əlavə suallarla bağlı festival2020@booktrailer.azemail ünvanına müraciət etməyinizi xahiş edirik.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - İşgüzar münasibətlər həddən artıq ehtiyatlı davranış tələb edir. Mənfi təsir altına düşməyin, yerinə yetirə bilməyəcəyiniz vədlər verməyin. Belə çətin situasiyada düşünülməmiş addımlar yolverilməzdir.



**Buğa** - Uğurlu, harmonik və irəliləyişlər vəd edən gündür. Rəqibləri üstələmək, qarşınıza qoyduğunuz məqsədə doğru ciddi addımlar atmaq, önəmli və perspektiv layihədə təkana nail olmaq üçün səbrli, soyuqqanlı olun.



**Əkizlər** - Özünüzü qoruyun, səhhətinizə fikir verin. Nasazlıq, soyuqdəymə, zökəm, xroniki ağrıların kəskinləşməsi ehtimalı var. Səfərdəsinizsə, yaxşı bələd olmadığınız marşrutla hərəkət edirsinizsə, xüsusilə ehtiyatlı olun.



**Xərçəng** - Uğurlu və xoş gündür. Məqsədə çatmaq üçün qan-tər tökərək çalışmaq gərək deyil. Qələbəyə nail olmaq asandır. Yetər ki, fəndgir və soyuqqanlı olasınız. İdeyanızı həmkarlarınızla yanaşı, nüfuzlu şəxs də dəstəkləyəcək.



**Şir** - Müstəqil iş əhəmiyyətli nailiyyətlər vəd edir. Yaradıcı peşə sahibləri istedad və bacarıqlarını tam izhar etməyə imkan verən təklif ala bilərlər. Ailədəki münasibətlər normallaşır, ümumi problemi həll etmək üçün birləşmə imkanı yaranır.



**Qız** - Düşünülməmiş, gərəksiz xərclərə yol verməyin. Başqalarına imkan verməyin ki, pullarınıza ağalıq etsinlər. Günün ikinci yarısı uğurlu, əlverişli vaxtdır. Peşəkar irəliləyişə nail olacaqsınız.



**Tərəzi** - Müstəqil fəaliyyət göstərməklə yanaşı, səlahiyyətlər və işinizin bir qismini etibar etdiyiniz insana həvalə etsəniz, uğur əldə edəcəksiniz. Ən çətin, maraqsız işləri tapşırmağa adam tapılacaq.



**Əqrəb** - Maliyyə məsələlərindəki durum yaxşı deyil. Situasiyanı şübhəli anlaşma, razılaşma və ya avantüralar vasitəsilə düzəltməyə çalışmayın. Daha əlverişli şəraiti gözləyin. Şəxsi münasibətlər sahəsində durum yaxşıdır.



**Oxatan** - Gəlir, karyera inkişafı istisna deyil. Şəxsi münasibətlərdə situasiya əverişlidir. Sizi sevir, sizə diqqət yetirir, anlayırlar. Səfər, səyahət və ailəvi istirahət üçün yaxşı gündür. Yaxşı əhval və nikbinliyi qorumaq çətin deyil.



**Oğlaq** - İşdə situasiya asan olmasa da, pozitiv təmayüllər tədricən güclənir. Rəhbərliklə ciddi məsələləri müzakirə etmək, tərəfdaş və ya şəriklə situasiyanı nəzərdən keçirmək gərəkdir.



**Dolça** - İşgüzar fəaliyyət baxımından yaxşı gündür. Maddi durumunuzu möhkəmləndirməklə yanaşı, əməkdaşlığın yeni şərtlərini tərəfdaşlarla müzakirə edə bilərsiniz. Ətrafınızdakı insanları planınız çərçivəsində işləməyə sövq etmək çətin deyil.



**Balıqlar** - Yaxınlarınıza həddən ziyadə diqqətli olun. Yalnız öz maraqlarınızı düşünərək mənafelərinizi təmin etməyə çalışsanız, mühüm nüansı nəzərdən qaçıracaqsınız. Sevdiyiniz insanla münasibətlərdə sərinlik istisna deyil.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Alimlər təhlükəli Çin krabları barədə xəbərdarlıq edir



**Latviyanın Ətraf Mühitin Mühafizəsi Agentliyi saytında invaziv və olduqca təhlükəli dəniz canlısı olan, ölkədə sürətlə artan Çin tüklü krabına həsr olunmuş bölmə yaratmağı planlaşdırır.**

"AZƏRTAC" bildirir ki, hidroekoloqlar bu krabları tutduqdan sonra yenidən suya diri halda buraxmamağa çağırır. Bildirilir ki, Çin tüklü krabı fəal şəkildə yuvalar qazır və sahil xəttini pozur, bununla yanaşı, balıq torlarından balıq yeyir. Çin tüklü krabı təbii yayılma sahələrindən kənarda yerli növlərə qarşı aqressiv ola bilir.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:**
*510-87-40; 510-87-38; 510-87-39*

***e-mail: azer22@mail.ru***

**Reyestr № 0106-P219-45846**

**Qəzet həftədə 5 dəfə çıxır.**
**(Bazar və bazar ertəsindən başqa).**
**«BZ»-də çap olunur.**

*Sifariş: №2514* *Tiraj: 3050*

**Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.**

**Reklam mətninə görə qəzet məsuliyyət daşımır.**